www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 may 2024-cü il Çərşənbə axşamı № 87 (8460) Qiymәti 60 qәpik

**Xəbər**

**Cavanşir körpüsünün söküntüsü başladı - 4-5 ay iş gedəcək**

yazısı səh.14-də

**Gündəm**

**AŞ PA-nın Azərbaycan dilemması**




Bakıya dəstək artır, Strasburq gözləmədə...

yazısı səh.5-də

**Lukaşenkonun İrəvanı narahat edən mesajı - Qafqaza cavabdehlik İlham Əliyevdə...**

yazısı səh.8-də

**Paris bu dəfə YAP-ı hədəf aldı - absurd hesabat...**

yazısı səh.7-də

**Dörd kənd 1976-cı il xəritəsi ilə... - bəs sonra?**

yazısı səh.6-da

**Qarabağ Universitetinə rektor təyin edildi**

yazısı səh.2-də

**Erməni kilsəsi sülh əleyhinə... - keşiş Srbazan qana susayıb**

yazısı səh.11-də

**İşdən çıxarılan idarə rəisinin başı dərddə - həbsə gedir?**

yazısı səh.3-də

**Cəbrayılın kəndlərinə ilk mərhələdə 3 193 sakin köçürüləcək**

yazısı səh.6-da

**Kürqırağı bölgələrə ciddi təhlükə**

yazısı səh.15-də

**Məktəblərdə iki günlük monitorinqlərlə bağlı narazılıq**

yazısı səh.13-də

**"Çudo Peçka"nın dövlətə 157 min manat vergi borcu var**

yazısı səh.14-də

# DƏHŞƏTLİ QƏZA İRANIN SİYASƏTİNİ DƏYİŞƏCƏKMİ - FAKT VƏ RƏYLƏR

Cənub qonşumuzla münasibətlərimizi pozmaq cəhdləri əbəsdir; Tehranda səfirliyimiz iyulda bərpa olunacaq; **Azərbaycan Prezidenti:** "Rəisinin simasında İran xalqı bütün həyatını ölkəsinə fədakarlıqla və sədaqətlə xidmət etmiş görkəmli dövlət xadimini itirdi"




yazısı səh.9-da

# Bakı və Vaşinqton münasibətlərində yeni mərhələ

**Politoloq:** "ABŞ Parisdən fərqli olaraq ölkəmizin Cənubi Qafqazda oynadığı rolu dəyərləndirə bilir"

yazısı səh.4-də



**"Pulların 15 faizi Nəcməddin Sadıqova çatırdı" - 143 milyonluq oğurluğun sirri açılır**

yazısı səh.3-də



Pərviz Heydərov

**"Yastıq altındakı pullar"ın həcmi artır: nə bank, nə qızıl - ekspert deyir ki...**

yazısı səh.10-da



*Mikayıl Cabbarov:*

**"Orta dəhlizlə idarə olunan nəqliyyatın həcmində artım müşahidə olunur"**

yazısı səh.2-də



## Mikayıl Cabbarov: "Orta dəhlizlə idarə olunan nəqliyyatın həcmində artım müşahidə olunur"

**İpək Yolunun ayrılmaz hissəsi olan Orta dəhliz vasitəsilə idarə olunan nəqliyyatın həcmində davamlı artım müşahidə olunur.**

"APA-Economics" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan-Tacikistan biznes forumunda çıxışı zamanı deyib.

O bildirib ki, 2023-cü ildə bu marşrutla daşınan yüklərin həcmi 86% artaraq 2,7 milyon ton təşkil edib.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığında yerləşən Ələt Azad İqtisadi Zonası beynəlxalq investorlarla işgüzar əlaqələrə hazırdır", - deyə nazir əlavə edib.



## Mincivan qəsəbəsinə ilkin olaraq 3 146 nəfər köçürüləcək

**Prezident İlham Əliyevin mayın 18-də təməlini qoyduğu Zəngilan rayonunun Mincivan qəsəbəsinə mediatur təşkil olunub.**

APA-nın Qarabağ bürosu xəbər verir ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlhamiyyə Rzayeva media nümayəndələrinə bildirib ki, ərazisi 301,51 hektar olan Mincivan qəsəbəsinə birinci mərhələdə 3 min 146 nəfər köçürüləcək: "2040-cı ilədək qəsəbədə 9088 nəfər üçün 630 fərdi ev və bir neçə mərtəbəli yaşayış binalarının tikilməsi nəzərdə tutulub. Mincivan qəsəbəsində yaşayacaq əhalinin məşğulluğunun təmin olunması məqsədilə idarəetmə, mədəniyyət və əyləncə, iqtisadi inkişaf obyektləri, xidmət və kommersiya müəssisələri yaradılacaq. Qəsəbədə inzibati bina, mədəniyyət mərkəzi, kitabxana və çoxfunksiyalı bina, restoran, idman-sağlamlıq, ailə-sağlamlıq mərkəzləri, hotel, bayraq meydanı, ticarət, məişət və baytarlıq xidmətləri obyektləri, mebel mağazası, mərasim evi, yanğın deposu, bazar kompleksi, emalatxana və satış köşklərinin yaradılması nəzərdə tutulub. Mincivan qəsəbəsində tam orta məktəb, uşaq bağçası, poliklinika, avtovağzal binası, yanacaqdoldurma məntəqəsi, anbar və logistika binaları, ağac emalı və mebel sexləri, digər istehsalat müəssisələri də inşa olunacaq".

Qurumun rəsmisi onu da vurğulayıb ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələ üçün layihələndirilən ərazinin sahəsi 153,4 hektardır: "Bu mərhələdə Mincivan qəsəbəsinə 3146 nəfərin köçürülməsi üçün 628 fərdi ev və 92 mənzildən ibarət bir neçə mərtəbəli dörd yaşayış binasının tikintisi nəzərdə tutulur".

# Kirants kəndi ərazisində sonuncu 3 sərhəd dirəyinin quraşdırılması başa çatdı



**Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası istiqamətində əldə olunmuş razılığa müvafiq olaraq Ermənistanın Tavuş vilayətinin Kirants kəndi ərazisində sonuncu üç ədəd sərhəd dirəyinin quraşdırılması başa çatıb.**

APA-nın xəbərinə görə, bu barədə erməni Telegram kanallarında məlumat yerləşdirilib. Bildirilib ki, artıq Ermənistan sərhədçiləri ərazidə xidmətə başlayıblar.

Eyni zamanda Ermənistan polisi Azərbaycanla sərhədlərin delimitasiya və demarkasiyası haqqında razılaşmaya etiraz əlaməti olaraq Kirants kəndinə daxil olmaq istəyən sakinləri əraziyə buraxmayıb.

Ermənistan polisi Qazaxla sərhəddəki Kirants kəndinin girişində 14 etirazçını saxlayıb.

Həmin şəxslər Azərbaycanla sərhədlərin delimitasiya və demarkasiyası haqqında razılaşmaya etiraz ediblər.

Xatırladaq ki, mayın 15-də Azərbaycanla Ermənistan arasında keçirilmiş görüşdə 2024-cü il 19 aprel tarixli 8-ci görüşün Protokoluna uyğun olaraq görülmüş işləri müzakirə edib və Sovet İttifaqı çərçivəsində onun süqutu dövründə mövcud olmuş hüquqi cəhətdən əsaslandırılan respublikalararası sərhədə uyğunlaşdırılması məqsədilə bilavasitə Bağanıs Ayrım (AR) - Bağanis (ER), Aşağı Əskipara (AR) - Voskepar (ER), Xeyrımlı (AR) - Kirants (ER) və Qızılhacılı (AR) - Berkaber (ER) yaşayış məntəqələri arasında sərhəd xəttinin hissələrinin SSRİ SQ Baş Qərargahının 1979-cu ildə növbətçilik prosedurunu keçmiş 1976-cı il tarixli topoqrafik xəritəsinə uyğun olaraq yerdəki geodeziya ölçmələri əsasında koordinatların dəqiqləşdirilməsi nəzərə alınmaqla birgə tərtib olunmuş Protokol-təsvirini razılaşdırıblar. Görüşün yekunu olaraq müvafiq protokol imzalanıb.

## Pentaqon: "Rusiya Ukrayna sərhədi boyunca yaxın həftələrdə daha da irəliləməyə çalışacaq"



**Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupunun 22-ci iclası keçirilib.**

APA xəbər verir ki, "Ramşteyn" formatında keçirilən virtual görüşün açılışında ABŞ müdafiə naziri Lloyd Ostin çıxış edib.

"Biz çağırış anında görürük. Putinin işğalçıları suveren Ukrayna ərazisinə növbəti hücuma başlayıb və Kreml qüvvələri Ukrayna sərhədi boyunca bufer zona yaratmaq cəhdi ilə yaxın həftələrdə daha da irəliləməyə çalışacaq", - ABŞ müdafiə naziri deyib.

O vurğulayıb ki, rusların Xarkov üzərinə yeni hücumu Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupunun əhəmiyyətini gücləndirir.

**Ostin qeyd edib ki, Rusiya Ukrayna şəhərlərini intensiv şəkildə bombalamağa davam edir:** "Beləliklə, hava hücumundan müdafiə məsələsi bu gün gündəmimizdə əsas yer tutacaq. Mən bütün müttəfiqlərimizi və tərəfdaşlarımızı Ukraynanı təcili olaraq ehtiyac duyduğu hava hücumundan müdafiə qabiliyyəti ilə təmin etmək imkanlarını yenidən nəzərdən keçirməyə çağırıram".

ABŞ müdafiə naziri iclasda koalisiyanın imkanlarının koordinasiyası məsələsinin müzakirə olunacağını bildirib.

Onlayn iclasda 50-yə yaxın ölkənin müdafiə nazirləri və müdafiə idarələrinin rəhbərləri iştirak edir.



## Qəza bu səbəbdən olub - ABŞ kəşfiyyatı

**İran prezidenti İbrahim Rəisinin olduğu helikopter bədbəxt hadisə nəticəsində qəzaya uğrayıb.**

Bunu ABŞ Senatındakı Demokratlar Partiyasının rəhbəri Çak Şumer deyib. O, ABŞ kəşfiyyatının qəzaya dair başqa dəlil tapmadığını deyib:

"Dumanlı hava olub. Belə görünür ki, bu, bədbəxt hadisədir". (Metbuat.az)



## BTQ tarixində önəmli gün: yükdaşımalar bərpa olunub

**Orta dəhlizin vacib seqmenti hesab olunan Bakı-Tiflis-Qars dəmir yolu xəttinin Gürcüstandan keçən 184 kilometrlik hissəsində aparılmış təmir-bərpa, rekonstruksiya və genişləndirmə işləri artıq yekunlaşıb.**

"APA-Economics" xəbər verir ki, bu gündən etibarən BTQ dəmir yolu xətti üzrə yükdaşımalara start verilib.

Abşeron Logistika Mərkəzindən 20 konteynerdən ibarət ilk yük qatarı Gürcüstan istiqamətinə yola salınıb.


Şahin Bayramov

## Qarabağ Universitetinə rektor təyin edildi

**Şahin Vaqif oğlu Bayramov Qarabağ Universitetinin rektoru təyin edilib.**

APA xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.

Prezidentin digər sərəncamı ilə Şahin Bayramov Mingəçevir Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilib.

YENİ MÜSAVAT
N 87 (8460) 21 may 2024

# "Pulların 15 faizi Nəcməddin Sadıqova çatırdı" - 143 milyonluq oğurluğun sirri açılır

## Məhkəmədə ilginc ifadələr: "Bu qaydanı baş qərargah rəisi bir tələb kimi qoymuşdu"



**Müdafiə Nazirliyinin mənimsəməyə görə tutulmuş Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi davam edir.**

Nizami Məmmədovla bərabər müttəhimlər kürsüsünə Hərbi Hava Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi polkovnik Cəlal Kazımov, Quru Qoşunların Maliyyə İdarəsinin rəisi Bayram Bayramov və Hərbi Dəniz Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi Vüsal Əlizadə çıxarılıblar. Təqsirləndirilən şəxslərə Cinayət Məcəlləsinin 179.4-cü (xüsusi ilə külli miqdarda ziyan vurmaqla mənimsəmə törətmək) maddəsi ilə ittiham irəli sürülüb. Hazırda məhkəmədə şahidlərin dindirilməsi mərhələsi davam edir.

Musavat.com xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakim Fikrət Əliyevin sədrliyi ilə keçirilən prosesdə Müdafiə Nazirliyinin tabeliyində olan **Maştağa hərbi kənd təsərrüfatı müəssisəsinin rəisi işləmiş Zahir Tağıyev** şahid qismində ifadə verib.

**O bildirib ki, təqsirləndirilən şəxslərdən heç kimi tanımayıb:** "Nizami müəllimi televizorda görmüşəm. İşlədiyim dövrdə Nizami müəllimlə heç bir əlaqəm olmayıb. Əsas mühasib Akif Umudovu tanımışam. Müdafiə Nazirliyinin hərbi hissələrinə tərəvəz və çörək verirdim. Köçürmələrdə gecikmə olması üçün Akif Umudovla işdən sonra görüşüb ona hörmət edirdim".

Dövlət ittihamçısı bildirib ki, cinayət işinin materiallarından Zahir Tağıyevə məxsus olan 30-a yaxın şirkət var, həmin şirkətləri adları ilə sadalayıb və həmin şirkətlərin hamısının özünə məxsus olub-olmadığını soruşub. Zahir Tağıyev isə bu şirkətlərin hamısının özünə məxsus olmadığını deyib.

**Bildirib ki, özünə aid olan şirkətlər də var, yaxın qohumlarına məxsus olanlar da var:** "Mən bu şirkətlərə mal tədarükünə kömək edirdim. Satınalma və Təchizat İdarəsində isə Ceyhun və Zaman adlı sürücülər vasitəsilə onlara çatan pulu göndərirdim".

**Zahir Tağıyev Nizami Məmmədova pul vermədiyini, ittiham aktında səhv getdiyini deyib:** "Mən qazancın 3 faizini Akif Umudova, 3 faizini isə Satınalmalar və Təchizat İdarəsinin həbsdə olan sabiq rəisləri Məlikməmməd Qurbanov və Mahir Şirvanova göndərirdim. Akif Umudovla aramızda Nizami Məmmədovla bağlı söhbət olmayıb".

**Şahid Zahir Tağıyev sənədləri Akif Umudova verdiyini, Satınalmalar və Təchizat İdarəsi ilə isə müqavilə bağladığını bildirib:** "Əsasən 44 günlük müharibə gedən vaxt hərbi hissələri ərzaqla təmin etmişəm. Hətta hərbi hissələrə 30-40 min manatlıq humanitar yardım da göndərmişəm. Belə ki, məndən əvvəl bir neçə şirkət tərəvəz verməkdən imtina etdi, çatdıra bilmirdilər. Mənim şirkətlərim isə tələbatı çatdırırdı".

**Bundan sonra ifadə verən Rəhim Laçınov deyib ki, Müdafiə Nazirliyinin Mənzil İstismar İdarəsində Təmir şöbəsinin müdiri işləyib, hazırda təqaüddədir. O, əsasən şirkətlər tərəfindən işlədiyi idarəyə göndərilən faizlərə nəzarət edib və həmçinin həmin pulları lazımi şəxslərə çatdırdığını bildirib:** "Hərbi hissələrin təmir işlərinin demək olar hamısını şirkətlər görürdü. İşləri əksər hallarda tenderə çıxarırdıq. Kim qalib gəlirdisə, onlarla da işləyirdik. Şirkətlərlə danışıqları Fikrət müəllim aparırdı. Şirkət rəhbərinə ümumi bir rəqəm deyilirdi. Onlar da həmin məbləğləri mənim vasitəmlə Fikrət müəllimə çatdırırdılar. Sənədləşmə prosesində təmir bölməsinin müfəttişləri iştirak edirdilər, sonda isə həmin sənədləri imzalayırdılar".

**Daha sonra Rəhim Laçınovun ibtidai istintaq zamanı verdiyi ifadəsindən bir hissə elan edilib. Həmin ifadədən məlum olur ki, tenderdə qalib gələn şirkətlərlə danışıqlar olduqdan sonra qalan məbləğin "otkat" hissəsi idarəyə qayıdıb:** "Bu qaydanı Baş Qərargah rəisi Nəcməddin Sadıkov bir tələb kimi qoymuşdu. Biz də bilirdik ki, pullar şirkətlərin hesabına köçürüldükdən sonra "otkat" şəklində geri qaytarılması Nəcməddin Sadıkov tərəfindən tələb olunub. Fikrət Mirzəyev ifadə verənə kimi təxmini bu qərardan məlumatım var idi. Bəzi şirkətlər var idi ki, Nəcməddin Sadıkovun yaxınlarına məxsus idi. Misal üçün, "İmpuls" MMC, "Mark LTD" və digərləri. Nəcməddin Sadıkov bu şirkətləri Fikrət Mirzəyevə tapşırmışdı. Fikrət müəllim də mənə bildirmişdi ki, bu şirkətlərin işlərinə qarışmayaq. Yəni onlardan "otkat" alınmırdı".

**Rəhim Laçınova ibtidai istintaqda verdiyi ifadəsi xatırlandıqdan sonra Nəcməddin Sadıkovun adını çəkməsinə belə aydınlıq gətirib:** "Mən tender komissiyasının 5 üzvündən biri olmuşam. Mənə heç bir məbləğ verilmirdi, ƏDV-dən kənar görülən işlərin 15 faizi Nəcməddin Sadıkova, 3 faizi isə Maliyyə İdarəsinə verilirdi. Mən görməmişəm ki, Fikrət Mirzəyev aparıb Maliyyə İdarəsinə pul versin, ancaq deyirdi verirəm. Onun ifadəsi əsasında mən də ibtidai istintaqda ifadə vermişəm".

**Daha sonra general Nizami Məmmədovun "Maliyyələşmə gedəndə bilirdiniz ki, hansı firmaya nə qədər pul köçürürük?" sualına şahid belə cavab verib:** "Yox, mən sənədləri görmürdüm. Amma müqavilənin qiymətini görürdük. Şirkətlər müqavilələri Fikrət müəllim olmayanda mənə verirdilər. Ümumi köçən məbləğin 3 faizini Maliyyə İdarəsinə verirdik".

**Nizami Məmmədovun vəkili Rəşad Mirmehdizadənin "3 faizi maliyyələşməyə nəyə görə verirdiniz" sualına şahid belə cavab verib:** "İbtidai istintaq Nizami müəllim tutulandan sonra bizdən ümumi hesabatı istəmişdi. Müstəntiq hesabata baxıb bizə suallar verirdi, biz də təsdiq edirdik. Fikrət Mirzəyevin ifadəsi həmin hesabata uyğun yazılıb. Mən də onların dediklərinin düz olduğunu görüb təsdiq edərək ifadə vermişəm".

**Daha sonra Rəhim Laçınov təmir bölməsində 2016-cı ildən işlədiyini deyib. Qeyd edib ki, 2017-ci ilin iyul ayından köçürülən pulların 18 faizi ona çatdırılıb:** "Həmin məbləğin 15 faizi Nəcməddin Sadıkova, 3 faizi isə Maliyyə və Büdcə İdarəsinə göndərilib. Bütün bunları da Fikrət Mirzəyevin deməyinə əsasən yazmışam".

Qeyd edək ki, Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədov, Hərbi Hava Qüvvələrinin (HHQ) Maliyyə Xidmətinin sabiq rəisi, polkovnik Cəlal Kazımov, Quru Qoşunların maliyyə idarəsinin rəisi Bayram Bayramov, Hərbi Hava Qüvvələrinin maliyyə xidmətinin sabiq rəisi Vüsal Əlizadə, Müdafiə Nazirliyinin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi, polkovnik Mahir Şirvanov, həmçinin nazirliyin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi Məlikməmməd Qurbanov, nazirliyin mənzil istismar idarəsinin sabiq rəisi, polkovnik Fikrət Mirzəyev Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi xüsusi əməliyyat nəticəsində həbs ediliblər. Təqsirləndirilən şəxslər dövlət büdcəsindən ayrılan pulları mənimsəməkdə ittiham edilirlər. Cinayət işləri ayrı-ayrı icraatlarda baxılması üçün məhkəməyə göndərilib. İstintaq dövründə dövlətə vurulmuş ümumi ziyanın 40 milyon manatı ödənilib.

Xatırladaq ki, cinayət işi üzrə ümumilikdə dövlətə dəymiş ziyan 143 milyon manatdır.

**Növbəti proses mayın 24-də davam edəcək.**

❑ **E.MƏMMƏDƏLİYEV,**
**Musavat.com**



# İşdən çıxarılan idarə rəisinin başı dərddə - həbsə gedir?

## Hüquqşünas: "Müdafiə xərclərinin oğurlanmasında adı keçən hər kəs istintaqa cəlb olunmalıdır"

**Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin rəisi polkovnik Nəriman Cabbarov vəzifəsindən azad edilib. Bununla bağlı müdafiə naziri general-polkovnik Zakir Həsənov əmr imzalayıb.**

Nəriman Cabbarov hazırda həbsdə olan Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədovdan sonra bir müddət həmin vəzifəni icra edib, sonra isə nazirin əmri ilə adıçəkilən idarəyə rəis təyin olunub. MN-dəki 143 milyonluq cinayət işində Nəriman Cabbarovun adı keçib və polkovnik məhkəmədə şahid qismində dindirilib. Xatırladaq ki, 2022-ci ilin əvvəlində DTX Müdafiə Nazirliyində maliyyə qanun pozuntuları ilə bağlı əməliyyat keçirib. İstintaqın gedişində bir neçə zabit həbs edilib, bir neçəsi haqda alternativ qətimkan tədbirləri seçilib. Bütün təqsirləndirilən şəxslərə qarşı Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham irəli sürülüb.

Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi davam edir. Müttəhimlər kürsüsünə Nizami Məmmədovla yanaşı, Hərbi Hava Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi, polkovnik Cəlal Kazımov, Quru Qoşunlarının Maliyyə İdarəsinin rəisi Bayram Bayramov və Hərbi Dəniz Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi Vüsal Əlizadə çıxarılıblar. Nizami Məmmədov məhkəmənin ötən proseslərinin birində məbləğlərin şişirdilməsi haqda danışarkən Nəriman Cabbarovun da adını çəkmişdi. Şahid qismində ifadə verən Elçin Mustafayev bildirib ki, maliyyə xidmətinin rəisi işlədiyi hərbi hissədə aparılan maliyyə yoxlaması zamanı 528 min manat ziyan müəyyən edilib. Şahidin sözlərinə görə, bu vəsaitin 170 min manatı ona çatıb. Şahid qeyd edib ki, tərəfindən vurulmuş 170 min manat ziyandan cəmi 25 min manat ödəyib. O, dövlət büdcəsindən mənimsədiyi vəsaitin qalan hissəsini də qısa zamanda ödəyəcəyinə söz verib.

Məhkəmədə sualları cavablandıran şahid deyib ki, "ölü canlar" olan kart hesablarına əlavə vəsaitlər yazılıb, həmin kartların sayını dəqiq xatırlamır. Qeyd edib ki, "ölü kartlar"ı yaratmağı ona Cəlal Kazımov göstəriş verib: "Amma müəyyən müddətdən sonra Cəlal Kazımov dedi ki, daha bu kartlardan istifadə etməyək. Bu kartlar vasitəsilə 15 min manat əlavə əməkhaqqı yazılıb. Bunun da 13 min manatını Cəlal Kazımova vermişəm".

Cəlal Kazımov isə şahidin yalan danışdığını, ona belə bir göstəriş vermədiyini deyib. O bildirib ki, ümumiyyətlə, Elçin Mustafayevin fəaliyyətini yoxlamayıb.

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Müdafiə Nazirliyində (MN) bir-birinin ardınca həyata keçirdiyi həbslərdən sonra bəlli oldu ki, ordudan nə az, nə çox, 143 milyon manat oğurlanıb:** "Aydın məsələ idi ki, bu qədər büdcə vəsaitini hansısa idarə rəisi götürüb cibinə qoya bilməzdi. Bilinirdi ki, burada yuxarı vəzifədə olanlardan kimlərinsə əli var. Belə bir miqyaslı mənimsəmənin illərlə davam etməsi bu istiqamətdə sistemli iş aparılmasından xəbər verirdi. İlk gündən deyilir ki, bu işlərə Nəcməddin Sadıkovun da aidiyyəti xüsusi araşdırılmalıdır. Bu adam Vətən müharibəsinin ən qızğın günlərində vəzifəsindən uzaqlaşdırılıb. Onun vəzifədə olduğu dövrdə mətbuatda korrupsiya cinayətləri ilə bağlı yüzlərlə yazı dərc olunub. Əgər həmin məsələlər qaldırılsa, araşdırılsa, Sadıkovun həbsi labüddür".

**Natiq Ələsgərov deyib ki, Müdafiə Nazirliyində 143 milyon manatlıq yeyintiyə dair cinayət işində ortaya çıxan əsas korrupsiya üsullarından biri tenderlərdə qalib elan edilən şirkətlərin hesabına artıq vəsait köçürülməsi və həmin pulların sonradan geri alınmasıdır:** "Nazirliyin Maliyyə və Büdcə İdarəsinin keçmiş rəisi general Nizami Məmmədov və digərlərinin cinayət işi üzrə Bakı Hərbi Məhkəməsində keçirilən proseslərdən birində belə məlum olub ki, bu sxem üzrə 20 milyon manat civarında pul qaytarılıb. Məhkəmədə üzə çıxan faktlarda büdcədən müdafiə xərclərinə ayrılan 1 qəpiyin belə mənimsənməsində adı keçən hər kəs istintaqa cəlb olunmalıdır".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 87 (8460) 21 may 2024

# Bakı və Vaşinqton münasibətlərində yeni mərhələ

**Deputat:** “Hikmət Hacıyevin səfərinin və apardığı danışıqların da bu məsələdə müsbət təsirinin olacağını söyləyə bilərik”

**Politoloq:** “ABŞ Parisdən fərqli olaraq Azərbaycanın Cənubi Qafqazda oynadığı rolu dəyərləndirə bilir”

**Ötən həftə ABŞ-da səfərdə olan Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev dövlət katibinin siyasi məsələlər üzrə müavini Con Bass, dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin birinci müavini Yuri Kim və dövlət katibinin demokratiya, əmək və insan hüquqları üzrə köməkçisi Robert Cilkristlə görüşüb. Görüşlərdə ikitərəfli münasibətlər, mövcud regional və qlobal təhlükəsizlik mühiti, habelə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesini əhatə edən geniş spektrli məsələlər müzakirə olunub.**

Hikmət Hacıyev Ağ Evdə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanla da görüşüb. Bu barədə Hikmət Hacıyev X Platformasında yazıb: “Ağ Evdə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanla çox məzmunlu görüş baş tutdu və biz ölkələrimiz arasında ikitərəfli əməkdaşlığı və əlaqələrimizin gələcək inkişaf perspektivlərini nəzərdən keçirdik. Həmçinin regional və qlobal məsələlər də müzakirə edilib. Biz həmçinin regionda sülhün bərqərar olması və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesi ilə bağlı fikir mübadiləsi apardıq”.

**Hikmət Hacıyev ABŞ Sülh İnstitutunda da Azərbaycan-Amerika tərəfdaşlığını müzakirə edib:** “Hörmətli iştirakçılarla Azərbaycan və ABŞ arasında ikitərəfli münasibətlər və tərəfdaşlığımızın daha da inkişaf etdirilməsi, Azərbaycan üçün COP29 kimi daha qlobal və yeni xarici siyasət baxışı, iqlim və yaşıl həmrəylik gündəliyi, Mərkəzi Asiya və Azərbaycan vahid geosiyasi və geoiqtisadi məkan kimi və regional əməkdaşlığın gücləndirilməsi, Orta dəhliz, Xəzər-Qara dəniz bərpa olunan enerji dəhlizi layihəsi, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması və sülh gündəliyinin təşviqi, Cənubi Qafqaz regionunun transformasiyası və inteqrasiyası ilə bağlı geniş fikir mübadiləsi apardıq”.

Azərbaycan ABŞ-ın vacib strateji-iqtisadi tərəfdaşı, qlobal enerji təhlükəsizliyində və Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı kimi Avropanın enerji təhlükəsizliyində və qitələrarası transmilli enerji nəqli marşrutlarında ABŞ-la eyni mövqedən çıxış edir. Azərbaycan həmçinin Avropa ilə Asiya və Yaxın Şərq regionu arasında mühüm nəqliyyat dəhlizi olan Xəzər dənizinin sağ və sol sahilləri, Uzaq Şərq, Çinlə Avropa bazarlarını birləşdirən İpək yolu zolağının strateji bəndidir.







Məlumdur ki, bir qrup ermənipərəst konqresmen Bakıya qarşı “sanksiya siyahısı” hazırlayıb. Sanksiya təşəbbüsünün qəbul edilməsi perspektivi zəifdir, xüsusilə Nümayəndələr Palatasının xarici əlaqələr komitəsində müzakirələrdən ABŞ prezidentinə təqdimata qədər uzanan prosedur qaydaları bunu deməyə əsas verir. Eyni zamanda ABŞ-ın xarici siyasət maraqları bunun mümkün olması ehtimalını azaldır. Amma belə görünür ki, bu səfər həm də münasibətləri yenidən gözdən keçirmək, münasibətlərə zərər verən problemlərin müzakirəsi, eləcə də gələcək əməkdaşlıq perspektivini müzakirə etmək fürsəti kimi dəyərləndirilə bilər.

**Milli Məclisin deputatı Aydın Hüseynov “Yeni Müsavat”a bildirib ki, Prezidentin köməkçisi hörmətli Hikmət Hacıyevin ABŞ səfəri iki ölkə arasında əlaqələrin inkişafına, şübhəsiz, müsbət təsirini göstərəcək:** “Azərbaycan ABŞ-la əlaqələrin həmişə normal olmasında maraqlı olub. Müxtəlif zamanlarda Vaşinqtonla Bakı arasında məsələlərə münasibətdə mövqe fərqliliyi olması isə təbiidir. Əsas məsələ odur ki, hər iki dövlət sonda ümumi, hər iki tərəfi qane edə bilən anlaşmanı əldə etməyi bacarıb. ABŞ-Azərbaycan münasibətləri strateji xarakter daşıyır. Cənab Hikmət Hacıyevin ABŞ-a səfəri ilə bağlı həm ölkəmizin bu ölkədəki səfirliyinin yaydığı rəsmi məlumat, həm də dövlət katibi müavininin özünün yaydığı məlumatlara, həm də Hikmət müəllimin yaydığı məlumata istinad etsək görərik ki, ikitərəfli, dövlətlərarası münasibətlərin, strateji xarakter daşıyan sahələrdəki münasibətlərin aydınlaşdırılması və inkişaf etdirilməsi kimi məsələlər müzakirə olunub. COP29-la bağlı ABŞ-la Azərbaycan arasındakı əməkdaşlıq Bakının həmin tədbirə ev sahibliyi edəcəyi ilə bağlı rəsmi məlumatlar dərc edildiyi andan başlayıb. Hikmət Hacıyevin səfəri iki ölkə arasındakı əlaqələrin daha çox inkişafına təkan verəcək. Azərbaycan Prezidenti İlham Əliyev Amerika ilə əlaqələrə həmişə önəm verib. Azərbaycan milli maraqlarının təmin olunmasını ABŞ-la əməkdaşlıqda daim prioritet olaraq görüb və görür. ABŞ-da bir qrup konqresmen və bir sıra siyasi dairələr daim Azərbaycanla münasibətlərin korlanması, Azərbaycana qarşı sanksiyaların qəbul edilməsinə cəhdlər göstərirlər. Bu yaxınlarda kiçik bir qrupdan ibarət erməni lobbisinə bağlı konqresmenlərin Konqresə təqdim etdiyi anti-Azərbaycan layihəsi də bu qəbildəndir. Əslində həmin layihə ABŞ-ın da maraqlarına ziddir. Yəqin ki, ABŞ Konqresi bu avantürist layihəni qəbul etməyəcək. Hətta edilsə belə, ABŞ prezidenti tərəfindən təsdiqlənməyəcək. Azərbaycan Prezidentinin xarici məsələlər üzrə köməkçisi Hikmət Hacıyevin səfərinin və apardığı danışıqların da bu məsələdə müsbət təsirinin olacağını söyləyə bilərik. Bu səfər ticari-iqtisadi, təhlükəsizlik, siyasi-diplomatik sahələrdə qarşılıqlı münasibətlərin daha da yaxşılaşmasına xidmət göstərəcək. ABŞ Azərbaycanın regionda söz və nüfuz sahibi olan ölkələrdən olduğunu qəbul edir”.

**Politoloq Elxan Şahinoğlu isə bildirdi ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin Vaşinqtonda amerikalı rəsmilərlə görüşləri iki ölkə arasında ara verilməyən dialoqun tərkib hissəsidir:** “Hikmət Hacıyevin görüşdüyü yüksək vəzifəli rəsmilərdən biri ABŞ prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivan oldu. Bu, onu göstərir ki, Vaşinqton Parisdən fərqli olaraq Azərbaycanın Cənubi Qafqazda oynadığı rolu dəyərləndirə bilir. Yeni Kaledoniyada baş verənlər fonunda Fransa-Azərbaycan münasibətlərinin daha da gərginləşəcəyini ehtimal etmək olar. Paris birbaşa və Avropadakı imkanlarından istifadə edərək Azərbaycan əleyhinə çirkin niyyətlərini həyata keçirməyə çalışacaq. Odur ki, belə vəziyyətdə rəsmi Bakının Vaşinqtonla münasibətlərini inkişaf etdirməsinə ehtiyac var, əks halda, iki cəbhədə diplomatik mübarizə Azərbaycana əlavə çətinliklər yarada bilər.

**Vaşinqtondakı görüşdə Azərbaycanla bağlı bu sualların səslənməsi mümkündür:** 1. Azərbaycanla Ermənistan arasında sülh və ya çərçivə sazişinin bu il imzalanması nə dərəcədə realdır? 2. Azərbaycan Ermənistanın regional layihələrə qoşulmasına razıdırmı? 3. Rusiyanın danışıqlar prosesini əngəlləməsi mümkündürmü?

Vaşinqton Cənubi Qafqazda sülh və bölgə ölkələri arasında əməkdaşlıqda maraqlıdır. Bu, Azərbaycanın maraqları ilə üst-üstə düşür. Bu səbəbdən Vaşinqton Prezident İlham Əliyevin irəli sürdüyü “Qafqaz evi” ideyasını dəstəkləməlidir. Çünki bu ideyanın reallaşması Rusiya və İranın bölgəyə təsir imkanlarını minimuma endirəcək. Moskva ilə Tehranın Cənubi Qafqazda fəallığının əleyhinə olan Vaşinqton eyni zamanda Orta dəhliz layihəsinin əleyhinə olmamalıdır.

Eyni zamanda Vaşinqton Amerikadakı erməni diasporu ilə işbirliyində olan konqresmenlərin qəbul etdirmək istədiyi ant-Azərbaycan sanksiya layihəsinin qəbuluna imkan verməməlidir".

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**



## Prezident İlham Əliyev: “Regionda sülh üçün tarixi imkanlar yaranıb”

**Azərbaycan Prezidenti İlham Əliyev ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasından sonra regionda sülh üçün tarixi imkanlar yarandığını bəyan edib.**

Musavat.com-un məlumatına görə, Latviya Seyminin sədri Dayqa Mierinanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən, dövlət başçısı Minsk Qrupu həmsədrlərinin fəaliyyətinə toxunaraq, onun hər hansı nəticəyə hasil olmadığını, o zaman ərazilərin işğalının davam etdiyini vurğulayıb.

Hazırda isə sülh gündəliyinin irəli aparılması üçün çox yaxşı və əlverişli imkanların olduğunu deyən Azərbaycan Prezidenti sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində də ikitərəfli proses çərçivəsində müsbət razılaşmaların əldə olunduğunu qeyd edib.

YENİ MÜSAVAT
N 87 (8460) 21 may 2024

# AŞ PA-nın Azərbaycan dilemması

## Bakıya dəstək artır, Strasburq gözləmədə...

**Macarıstanın xarici işlər naziri Peter Siyarto Azərbaycan nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyasının işində iştirakının bərpası məsələsini qurumun Nazirlər Komitəsinin iclasında qaldırıb.**

"Azərbaycan nümayəndə heyətinin AŞ PA-dakı fəaliyyəti bərpa olunmalıdır".

APA "Alpha News"a istinadən xəbər verir ki, bunu Macarıstanın xarici işlər naziri Peter Siyarto bildirib. O həmçinin Avropa Şurasında təmsil olunan bəzi dövlətlərin nümayəndə heyəti üzvlərinin hər hansı dövlətə qarşı ittihamlar səsləndirməsini yolverilməz adlandırıb.

**Siyarto bildirib ki, bir sıra avroparlamentarilər vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, digər ölkələrə qarşı ikili yanaşma sergiləyir:** "Əksər hallarda onlar bu və ya digər dövlət haqqındakı neqativ fikirlərini həmin dövlətin təmsilçilərinin yanında söyləməkdən çəkinir. Əlbəttə ki, bunun üçün cəsarət lazımdır. Bir sıra şəxslər Azərbaycanın Avropa Şurasının Parlament Assambleyasının işində iştirak etməməsindən yararlanmaq istəyir. Avropa Şurası tənqid platforması deyil" - baş nazir bildirib. Yada salaq ki, Cümhuriyyət Xalq Partiyasının sədri Özgür Özəl AŞ PA-nın yaz sessiyasında çıxışında Azərbaycana dəstəyini ifadə edib.

Ötən ay Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Azərbaycan üzrə həmməruzəçisi, norveçli deputat Liz Kristoffersen Azərbaycanın bu quruma qayıtması üçün Nazirlər Komitəsində danışıqlar getdiyini bildirib.

"Biz Azərbaycanı assambleyada görmək istəyirik. Bunun üçün Azərbaycan hakimiyyəti müəyyən güzəştlərə getməlidir və bir sıra tələbləri yerinə yetirməlidir", - Kristoffersen deyib.

Bu il yanvarın 24-də AŞ PA Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini təsdiqləməyib. Buna Azərbaycanın 23 il öncə Avropa Şurasına qoşulanda götürdüyü əsas öhdəlikləri yerinə yetirməməsi səbəb göstərilib. Bakının təşkilatın prinsiplərini pozması, ölkədə insan hüquqlarının durumu, siyasi məhbusların sayının artması əsas gətirilib.

Azərbaycanın AŞ PA-dakı nümayəndə heyəti qurumla işbirliyini qeyri-müəyyən müddətə dayandırdığını elan edib. Nümayəndə heyətinin bəyanatında deyilirdi ki, Azərbaycan ərazi bütövlüyü və suverenliyini bərpa edəndən sonra qarayaxma və qərəzli münasibətlə üzləşib. Azərbaycana dəstək artsa da, Strasburq hələ ki qərar verməyə tələsmir. Niyə?




**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov hesab edir ki, ikili standartların olduğu yerdə heç bir məsələnin obyektiv həlli mümkün deyil:** "Müstəqilliyimizin ilk illərindən Qarabağ problemi ilə bağlı biz Qərbdən yalnız qeyri-obyektiv münasibət görmüşük. Bunlar 30 il ərzində işğalçını ittiham edəcək bir addım atmadılar və sonda bu problemi biz öz gücümüzlə çözdük. İndi nə haqla bizim daxili işlərimizə qarışıb üstümüzə gəlirlər. Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətini fəaliyyətini dayandırmağa kim məcbur etdi? AŞ PA-nın ədalətsiz mövqeyi, Azərbaycanın daxili işlərinə qarışmaq qədər həyasızlığı sonda bizim nümayəndə heyətini belə bir addım atmağa məcbur etdi. Biz heç bir dövlətin daxili işlərinə qarışmırıq. Bu gün Avropa Birliyi ölkələrində insan haqları və azadlıqları sahəsində nə qədər problemlər yaşanır. Bu, həmin problemləri yaşayan hər bir dövlətin daxili işidir. Biz Fransada milli azlıqların hüquqlarının pozulması ilə bağlı problemlər barəsində indi danışmağa başlamışıq. Buna məcbur olduq. Çünki Fransa hökuməti artıq illərdir ki, həyasızcasına bizim daxili işlərimizə qarışır. Biz də bunun qarşılığını bu şəkildə veririk. Görünən budur ki, Fransa hökuməti bundan çox qəzəblənib və indi də Azərbaycanı Fransanın daxili işlərinə qarışmaqda ittiham edir. Deməli, bizim bu məsələyə müdaxilə etməyimizdən əndişələniblər. Bəs biz illərdir sizlərin Azərbaycanın daxili işlərinə burun soxmağınıza necə dözürük?

Avropa İttifaqı və onun təsisatları Cənubi Qafqazda kimin kim olduğunu yaxşı anlayırlar. Onlar çox yaxşı başa düşürlər ki, Azərbaycan nə Ermənistan, nə də Gürcüstandır. Sadəcə, bizi istədikləri kimi görmək istəyirlər, biz isə onların istədiyi kimi görünmək istəməyəcəyik. Biz kiminsə diktəsi ilə oturub-duran bir ölkə olmaq istəmirik. Bunu hər kəs anlamalıdır. AŞ PA bizim nümayəndə heyətimizin fəaliyyətini də özü bərpa edəcək, çünki bu, Azərbaycandan daha çox AŞ PA-ya və onun sahibi olduğu AB-yə lazımdır".

**Deputat Bəhruz Məhərrəmov bu davranışla AŞ PA-nın özünə xələl gətirdiyini söylədi:** "Macarıstanın xarici işlər naziri Peter Siyartonun Azərbaycan nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyasının işində iştirakının bərpası məsələsini qurumun Nazirlər Komitəsinin iclasında qaldırması dostcasına davranış olsa da, ilk növbədə təşkilatın özünün nüfuzunun bərpasına yönəlib. Daha öncə oxşar mövqeni sərgiləyən digər siyasilər kimi cənab Siyarto da Azərbaycanın yaxın dostu və eyni zamanda bir avropalı kimi başa düşür ki, mövcud irqçilik, azərbaycanofobiya və islamofobiya mühiti, əslində Avropa Şurasının əsl mahiyyətini ifşa etməklə təşkilatın etibarlılığına və qərəzsizliyinə ciddi zərbə vurmaqdadır. Müşahidə olunan proseslərin təşkilat üçün ciddi və geridönməz nəticələrinə görə isə Azərbaycan məsuliyyət daşımır. Azərbaycan 2001-ci ildən Avropa Şurası ilə Avropa xalqları ailəsinə inteqrasiya və Avropa standart və dəyərlərindən bəhrələnmədə ehtiva olunan əməkdaşlıq etməkdədir. Əməkdaşlığımız dövründə biz Avropa Şurası Parlament Assambleyasına müxtəlif ölkələrin parlamentariləri arasında qarşılıqlı hörmət və bərabərhüquqlu dialoq platforması kimi yanaşaraq bu təşkilatın Azərbaycanın məruz qaldığı işğal və təcavüz faktoru və nəticədə yüzminlərlə vətəndaşın pozulan haqlarının təmin edilməsində rol oynaya biləcəyinə inanmışıq. Hesab etmişik ki, Avropa Şurası elə məhz insan haqlarını və qanunun aliliyini müdafiə etmək üçün mövcuddur. Lakin ötən dövr ərzində Avropa Şurasının bütün təsisatları kimi, AŞ PA da münaqişə ilə bağlı məsələlərin müzakirəsindən imtina edərək, nə qədər absurd səslənsə də, Ermənistanın işğal siyasəti nəticəsində 1 milyondan artıq insanın hüququnun pozulmasının təşkilatın mandatına uyğun olmadığını iddia edirdi. Lakin Azərbaycanın özünün beynəlxalq səviyyədə tanınan ərazilərini işğaldan azad etməsi, sərhəd bütövlüyünü və bütün ərazilərində konstitusiya quruluşunu bərpa etməsi prosesindən dərhal sonra AŞ PA mövqeyini kəskin şəkildə dəyişərək çox isterik formada erməni psevdo maraqlarının müdafiəçisinə çevrildi və artıq başa çatmış münaqişənin tərəfi kimi davranmağa başladı. Xüsusən ötən il oktyabrın 23-də "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı qətnamə qəbul edərək Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqlarını hədəfə alan mövqe ifadə etdi. Bu gün Azərbaycan nümayəndə heyətinin fəaliyyətinin məhdudlaşdırılmasını "insan haqları və demokratik dəyərlər" amili ilə pərdələməyə çalışan AŞ PA qeyd olunan qətnamənin 23-cü bəndində "Dağlıq Qarabağın erməni əhalisinin humanitar vəziyyəti"ni əsas gətirib hələ o zaman Azərbaycan nümayəndə heyətinin etimadnaməsini 2024-cü ilin ilk iclasında tanımamaqla hədələmişdi. Yəni görünən odur ki, Avropa Şurası nümayəndə heyətimizin etimadnaməsini açıq-aşkar lokal xarakterli antiterror tədbirlərinə cavab olaraq, qisas zəminində tanımaqdan imtina edib.

Lakin AŞ PA rəsmiləri və siyasilər də görür ki, mövcud fonda Azərbaycan nə isə itirmir. Əksinə, lobbi alətinə çevrilmiş Avropa Şurası Azərbaycan kimi bir tərəfdaşdan məhrum olmaqla həm də Cənubi Qafqazda özünün sonunu gətirir. Sonrakı dövrlərdə AŞ PA-nın siyasi muzdlusu Frank Şvabenin yeni cinayətkar bəyanatı da göstərir ki, təşkilat əl atdığı təzyiq metodları ilə Azərbaycanın iradəsinə təsir etməyin mümkünsüzlüyünün fərqinə varıb. Şvabe kimi siyasi əxlaqsızın yenidən dövriyyəyə daxil olması da yalnız uğursuzluqdan doğan isterikadır. Cənab Peter Siyarto da məhz bu reallığı görür və bu mənada Avropa Şurasında təmsil olunan bəzi dövlətlərin nümayəndə heyəti üzvlərinin hər hansı dövlətə qarşı ittihamlar səsləndirməsini yolverilməz adlandırır. Macar siyasətçi aydın şəkildə başa düşür ki, bu ritorika ilə AŞ PA yalnız özünü nüfuzdan salır. Yəni prosesin bu ssenari üzrə uzanması, münasibətlərin gərginləşməsi yalnız kollektiv Qərb üçün alətə çevrilmiş AŞ PA-nın özü üçün ləkədir.

İndiki məqamda isə biz Avropa Şurası Parlament Assambleyası ilə münasibətlərin normallaşması istiqamətində xüsusi təşviqlərdə bulunmaq niyyətində deyilik. Münasibətlər Avropa Şurası Parlament Assambleyasının Qərbin çirkli alətinə çevrilməsindən sonra korlanıb və bu prosesə görə Azərbaycan məsuliyyət daşımır. Təbii ki, Avropa Şurası Parlament Assambleyası Azərbaycanla əməkdaşlıqda maraqlı olacaqsa, özünün ayırıcı xətlərindən imtina edəcəyi halda və Şvabe kimi siyasi etikadan kənar, korrupsiyalaşmış şəxslərin dili ilə danışmaqdan imtina etdikdən sonra Azərbaycan bu barədə düşünə bilər. Biz maraqlarımızı təmin edə biləcəyimiz bütün platformalara açığıq, o cümlədən əməkdaşlığımız dövründə AŞ PA-nın özlüyündə Azərbaycanla bağlı hər hansı müzakirə ilə həll olunmayacaq problemi olmayıb. Bu gün də biz heç bir subyektlə, o cümlədən Avropa Şurası təsisatları ilə problemli münasibət arzulamırıq. Lakin mövcud gərginlik bizdən qaynaqlanmadığı üçün gedişat bizi narahat etmir, AŞ PA Azərbaycanın Avropada mövcudluğu üçün həlledici təsisat deyil. Cənab İlham Əliyev elə geosiyasi konfiqurasiya formalaşdırıb ki, Azərbaycan Avropada 9 dövlətlə strateji əməkdaşlıq münasibətlərinə malikdir, eyni zamanda bir sıra Avropa dövlətlərinin enerji təhlükəsizliyi, dolayısı ilə milli təhlükəsizliyində rol alır. Yəni AŞ PA-nın bu davranışı ilə əslində Azərbaycan heç nə itirmir, əksinə AŞ PA birmənalı şəkildə özünü ifşa etmiş olur".

**Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Assanc ABŞ-a ekstradisiya üzrə məhkəmədə qalib gəldi

**WikiLeaks portalının qurucusu Culian Assanc ABŞ-a ekstradisiya üzrə məhkəmədə qalib gəlib.**

APA "Guardian"a istinadən xəbər verir ki, London Ali Məhkəməsi Assancın lehinə qərar çıxarıb.

Belə ki, Assanca ABŞ-a ekstradisiyası ilə bağlı qətnaməyə etiraz etmək hüququ verilib.

YENİ MÜSAVAT
N 87 (8460) 21 may 2024

# Dörd kənd 1976-cı il xəritəsi ilə... - bəs sonra?

**Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov Axar.az-a müsahibəsində Ermənistanın niyə bütün delimitasiya prosesinin 1976-cı ilin xəritəsinə əsasən olmasını istəməsinə aydınlıq gətirib. Onun sözlərinə görə, Almatı Bəyannaməsində, ümumiyyətlə, xəritə, ölkələrin sərhədləri haqda heç nə yoxdur.**

Keçmiş nazir vurğulayıb ki, sərhədlərin delimitasiyası 1976-cı il xəritəsi ilə davam etməyəcək: "Azərbaycanın rəsmi mövqeyi bəllidir. Bu proses ümumi olaraq 4 kəndlə bağlıdır. Çünki sərhədin məhz bu hissəsi (Qazax-Tavuş sərhədi - red.) 1920-ci ildən dəyişməyib. Əgər Almatı Bəyannaməsinin prinsipini götürsək, məntiqlə belə çıxır ki, sovet dövrünün ilk günündə olan sərhədlər əsas götürülməlidir. Sovet dövrü Azərbaycanda 1920-ci ilin aprelindən başlayır. Ermənistan isə Rusiya tərəfindən noyabrda işğal olunub. Yeni sərhədin digər hissələrinin delimitasiya prinsipləri məsələsi hələ açıqdır. Hazırda sərhədin təxminən 1 faizi müəyyənləşib".

**Keçmiş nazir qeyd edib ki, 1976-cı il xəritəsi bütün sərhəd üçün əsas götürülə bilməz:** "Zəngəzuru Ermənistana sovetlər verib, heç bir referendum olmadan, konstitusiyaya zidd şəkildə. Bu "payı" işğalçı administrasiya bağışlayıb, burada Azərbaycan xalqının iradəsi olmayıb. O cümlədən Göyçə mahalı da eyni qayda ilə verilib. Ona görə də hazırda bu məsələni qaldırırıq: biz dədə-baba torpaqlarımızdan niyə imtina etməliyik?! Rəsmi mövqeyimiz bundan ibarətdir ki, sərhədlərin müxtəlif hissələri müxtəlif illərin xəritələri əsasında delimitasiya və demarkasiya oluna bilər. Qazaxla sərhəd xatırlatdığım səbəbə görə 1976-cı il xəritəsi ilə delimitasiya olundu. Amma digər ərazilərdə tamamilə fərqli xəritələr əsas götürülməlidir və götürüləcək də".

**"Alyans" Araşdırmalar Mərkəzinin sədri Abutalıb Səmədov "Yeni Müsavat"a bildirib ki, Ermənistan hakimiyyəti uzun müddət delimitasiyanın 1970-ci illərin xəritələri əsasında aparılmasına çalışdı:** "Hətta konkret 1975-ci il xəritəsinin üzərində təkid edirdilər. Azərbaycan buna etiraz edirdi və əsas da onu gətirdi ki, Soçi razılaşmasına əsasən delimitasiyanın sovet dövrünün xəritələri əsasında aparılması razılaşdırılıb, bir xəritədən söhbət gedə bilməz. Sonradan bu xəritələr məsələsinə ermənilər Almatı Bəyannaməsini də qoşdular, dedilər orada yazılıb ki, dövlətlər arasındakı inzibati sərhədlər dövlət sərhədinə çevrilməlidir. Buna da Azərbaycan Prezidenti dəfələrlə izahat verdi, başa saldı ki, Azərbaycanla Ermənistan arasında inzibati sərhədlər hər yerdə müəyyən olunmayıb, xüsusilə dağlıq ərazilərdə müəyyən deyil. Bu səbəbdən Almatı Bəyannaməsinə istinad eləmək və onun əsasında dövlət sərhədlərini müəyyənləşdirmək qeyri-mümkündür. Ancaq ötən ay hökumət təmsilçilərindən ibarət hökumət komissiyaları arasında razılaşma əldə olundu və məlum oldu ki, Qazax ərazisində sərhədlər 1976-cı il xəritəsi əsasında müəyyənləşir. Lakin bu o demək deyil ki, Azərbaycanla Ermənistan arasında olan sərhədlərin hamısı bu xəritə əsasında müəyyənləşməlidir. Nə belə bir razılaşma var, nə də qərar var. Azərbaycan bütün sərhədlərin 1976-cı il xəritəsi ilə müəyyənləşdirilməsini qəbul eləməyib. Təbiidir ki, bu məsələ ilə bağlı biz bütün detalları bilmirik. Ancaq Prezident İlham Əliyevin mövqeyi açıq şəkildə səsləndirilib ki, sovetlər dövründə dəfələrlə Azərbaycan əraziləri Ermənistana peşkəş edilib və bu səbəbdən delimitasiya son illərin xəritələri əsasında aparıla bilməz və buna 1976-cı il xəritəsi də daxildir. Lakin nə qədər arxaya qayıda bilərik, SSRİ-nin yarandığı dövrə gedib çıxa bilərikmi, yoxsa ondan əvvəlki dövr də nəzərə alınmalıdır? Bunlar təbiidir ki, müzakirələrin gedişində müəyyənləşəcək".





**Tofiq Zülfüqarov:** "Sərhədlərin delimitasiyası 1976-cı il xəritəsi ilə davam etməyəcək"
**Abutalıb Səmədov:** "Prezidentin mövqeyi açıq şəkildə səsləndirilib ki, sovetlər dövründə dəfələrlə Azərbaycan əraziləri Ermənistana peşkəş edilib və bu səbəbdən delimitasiya son illərin xəritələri əsasında aparıla bilməz"

**Mərkəz sədri qeyd etdi ki, bizim arzumuz peşkəş edilən torpaqların hamısının geri qaytarılmasıdır. Ancaq təkcə bizim ədalətli istəyimizlə məsələlər həll olunmur. Burada digər faktorlar da var:** "Mən hesab edirəm ki, sabiq xarici işlər naziri Tofiq Zülfüqarovun söylədikləri də bizim hamımızın arzularımızın ifadəsidir. Biz Ermənistana bir qarış torpağımızı da peşkəş etmək istəmirik. Buna nə qədər nail ola bilərik? Bunu təbii ki, yaxın aylarda, yaxın illərdə görəcəyik. Ancaq dəqiq olan odur ki, Azərbaycanın mövqeyi dəyişməzdir. Bunu Azərbaycan Prezidenti son dəfə ADA Universitetində çıxışında da aydın şəkildə göstərdi. Birincisi, Almatı Bəyannaməsinin delimitasiya prosesində istifadənin mümkünsüz olduğunu dedi, ondan əvvəlki çıxışlarında müxtəlif xəritələrin əsas götürülməsinin zəruri olduğunu bəyan elədi. Və bu müzakirələrin nəticələri ümid edirəm ki, Azərbaycan üçün uğurlu olacaq, itirilmiş ərazilərimizi müzakirələrin gedişində geri qaytarmaq mümkün olacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Cəbrayılın kəndlərinə ilk mərhələdə 3 193 sakin köçürüləcək

**Cəbrayıl rayonuna mediatur təşkil olunub. APA-nın Qarabağ bürosu xəbər verir ki, media nümayəndələri Cəbrayıl rayonunun Prezident İlham Əliyev tərəfindən mayın 18-də təməli qoyulan Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Maşanlı kəndlərində olublar.**




Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlhamiyyə Rzayeva jurnalistlərə açıqlamasında bildirib ki, birinci mərhələdə Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Maşanlı kəndlərinə ümumilikdə 3 min 193 sakin köçürüləcək: "Birinci mərhələdə Böyük Mərcanlıya 542 nəfərin köçürülməsi üçün 149 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beş otaqlı olacaq. Baş plana əsasən, kəndin ümumi sahəsi 362 hektar təşkil edir. 2040-cı ilədək 6230 nəfər əhali üçün 1074 fərdi ev və bir neçə mərtəbəli yaşayış binaları layihələndirilib. Burada inzibati bina, klub-icma mərkəzi, çoxfunksiyalı bina, idman və ailə-sağlamlıq mərkəzləri, mərasim evi, bazar kompleksi və digər qeyri-yaşayış obyektlərinin tikintisi nəzərdə tutulur. Həmçinin Böyük Mərcanlı kəndində əhalinin tələbatına uyğun olaraq iki məktəb və beş uşaq bağçası inşa olunacaq. 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi 41 hektardır".

Daha sonra Karxulu kəndi haqqında məlumat verilib. Bildirilib ki, 2040-cı ilədək kəndin layihələndirilən ərazisi 313 hektar təşkil edir və bu müddət ərzində kənddə 4428 sakin üçün 940 fərdi ev və bir neçə mərtəbəli bloklu evlərin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulur: "Kənddə inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, kiçik sahibkarlıq obyektləri inşa olunacaq. Bundan başqa, baş plana müvafiq olaraq, kənddə əhalinin tələbatına uyğun iki tam orta məktəb və dörd uşaq bağçası tikiləcək. 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi isə 125 hektardır. Bu mərhələdə 691 sakin üçün 145 fərdi evin layihələndirilməsi və tikintisi nəzərdə tutulub".

**Sarıcallı kəndinin baş planında ümumi sahəsinin 330 hektar təşkil etdiyi də vurğulanıb:** "Burada inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, yanğınsöndürmə deposu, aqrotexniki park, mərasim evi, kənd bazarı, kiçik sahibkarlıq obyektləri tikiləcək. Bundan başqa, əhalinin tələbatına uyğun iki tam orta məktəb və 4 uşaq bağçasının layihələndirilməsi də nəzərdə tutulur. Ümumiyyətlə, bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq. 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi isə 104 hektardır. Bu mərhələdə kəndə 1 016 sakinin köçürülməsi üçün 242 fərdi ev inşa olunacaq".

**Qurum rəsmisi onu da deyib ki, 2040-cı ilədək Maşanlı kəndinin layihələndirilən ərazisi 157,54 hektar olacaq:** "Həmin müddətdə kənddə 2360 sakin üçün 590 fərdi evin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulub. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Bu kənddə də inzibati bina, klub-icma, idman sağlamlıq mərkəzləri, həkim məntəqəsi, mərasim evi, bazar kompleksi, ticarət, ictimai-iaşə, kiçik sahibkarlıq obyektlərinin layihələndirilməsi planlaşdırılır. Baş plana əsasən, kənddə tam orta məktəb üçün bina və iki uşaq bağçasının tikintisi nəzərdə tutulub. "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən burada məskunlaşacaq əhalinin yaşayış yükü nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 50 hektar yer ayrılıb. Bu mərhələdə 944 sakin üçün 236 fərdi ev tikiləcək".

Qeyd edək ki, Prezident İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Maşanlı kəndlərinin təməlini qoyub.

# Paris bu dəfə YAP-ı hədəf aldı - absurd hesabat...

## Politoloq: "Baş verənlər sübut edir ki, dünyanın diqqətini Kaledoniyada və digər Fransa müstəmləkələrində qurulmuş istismar rejiminə cəlb edən İlham Əliyev tam haqlı mövqedədir"

**Fransanın Xarici rəqəmsal müdaxilələrdən müdafiə üzrə dövlət xidməti - Viginum Azərbaycanın Yeni Kaledoniyadakı iğtişaşlar fonunda sosial şəbəkələrdə guya Fransanı hədəf alan qaralama kampaniyası apardığını iddia edib.**

Viginum aprelin 17-də yaydığı hesabatda iddia edir ki, "Azərbaycan mənşəli hesabların son günlərdə X və Facebook platformalarında Fransa polisini Yeni Kaledoniyada etirazçılara atəş açmaqda ittiham edən "aşkar qeyri-dəqiq və ya aldadıcı məzmunun kütləvi və koordinasiyalı şəkildə" yaymasını "aşkarlayıb". Hesabatda təkcə mayın 15-də X plaftormasında 1686 istifadəçinin Fransanı hədəfə alan saxta məlumatlar paylaşdığını, onlardan ən az 86-sının öz hesablarında Azərbaycanın hakim partiyası - Yeni Azərbaycan Partiyasının (YAP) üzvü olduqlarını qeyd etmələrinə diqqət çəkilir. Mayın 16-da isə X platformasında oxşar paylaşımlar edən 301 istifadəçinin ən azı 112-sinin bioqrafiyasında YAP və Azərbaycandan olduqlarını qeyd etdikləri bildirilir.

Viginum iddia edib ki, guya foto və videomontajlardan ibarət saxta məlumatları ilk yayan istifadəçilərdən biri - İslam Bafadarov adlı şəxs YAP-da məsləhətçi işlədiyini vurğulayıb. Hesabatda həmçinin kampaniyada iştirak edən istifadəçilərin bir hissənin siyahısı, yayılmış saxta məlumatlara dair "nümunələr" verilib. Yada salaq ki, ötən həftə Fransanın daxili işlər naziri Azərbaycanı Fransanın Sakit okeandakı xüsusi inzibati-ərazi vahidi, həftə ərzində iğtişaşların baş verdiyi Yeni Kaledoniyanın daxili siyasətinə qarışmaqda ittiham edib. Rəsmi Bakı ittihamları rədd edib. Azərbaycanın Xarici İşlər Nazirliyi dərhal bəyanat yayaraq fransalı nazirin "əsassız fikirləri"ni tamamilə rədd etdiyini vurğulayıb. Fransa baş verənlərə görə Azərbaycanı ittiham etsə də, Yeni Kaledoniyada yaşananlar Makron hakimiyyətinin yanlış siyasətinin nəticəsidir. Etirazların kökündə də Makronun "islahat" adı altında atdığı addımlar dayanır.

Əslində Azərbaycanın Yeni Kaledoniyaya dəstək verdiyi sirr deyil. Qoşulmama Hərəkatı tərkibində Bakı Təşəbbüs Qrupu yaradılıb və Fransanın son koloniyalarında azadlıq mübarizəsi aparan xalqlar bu qrupda təmsil olunurlar. Bakı Təşəbbüs Qrupu və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinika, Qvadelupa və Korsikada müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat Yeni Kaledoniyada baş verənlərlə bağlı birgə bəyanat da yayıb. Fransa isə beynəlxalq diqqəti özünün işğalçı siyasətindən, insan haqlarını tapdamasından yayındırmaq üçün Azərbaycanın adını hallandırır.

**Real Partiyasının Siyasi Komitəsinin üzvü Natiq Cəfərlinin fikrincə, Fransa açıq şəkildə "anqlo-sakslarrın" üzərinə gedə bilmir, Azərbaycanın adını çəkir:** "Olsun, əslində bu, məmləkətə nüfuz qazandırır və Fransaya da dərs olsun ki, separatizmi dəstəkləmək həmişə "bumeranq effekti" yaradır. Deməli, Azərbaycanın adının bu məsələdə hallanmasına gülmək, bunu zarafata çevirməkdənsə, bu məsələdən ağıllı istifadə etmək lazımdır". **N.Cəfərliyə görə, Sakit okeanda faydalı qazıntılarla dolu, strateji coğrafi mövqeyi olan Yeni Kaledoniya niyə Fransanın nəzarətində qalmalıdır:** "Deməli, Kanak xalqının müstəqillik mücadiləsinə dəstək vermək, Fransanı sıxışdıraraq həmin adalara sahib olmaq lazımdır. Bunu Britaniya və ABŞ istəyir, yəni Azərbaycan bu məsələdə nə edirsə, çox güman, Britaniya kimi müttəfiqi ilə razılaşdırılmış şəkildə edir".

**Politoloq Aydın Quliyevə görə, Azərbaycan Prezidentinin artıq 2 ildən çoxdur ki, Fransa müstəmləkələrinin azadlığı uğrunda başlatdığı məşhur Bakı Təşəbbüs Qrupu prosesi Fransa hakimiyyəti tərəfindən qərəzli münasibət kimi dəyərləndirilsə də, reallıq başqa mənzərəni göstərir:** "Kaledoniyada baş verənlər sübut edir ki, dünyanın diqqətini Kaledoniyada və digər Fransa müstəmləkələrində qurulmuş istismar rejiminə cəlb edən İlham Əliyev tam haqlı mövqedədir. Kaledoniyada həyata keçirilən cəza siyasəti 173 il bundan öncə fransızların bu torpaqlarda başlatdığı müstəmləkə - istismar siyasətinin davamıdır. Hələ bitməyib. Mahiyyət etibarilə bu siyasət 130 il ərzində fransızların Əlcəzair xalqına qarşı törətdiyi soyqırımlardan fərqlənmir. 1960-cı illərdə Əlcəzair xalqı azı 2 milyondan çox qurban verməklə bahasına 130 illik fransız müstəmləkəçiliyinə son qoya bildi. Ancaq Kaledoniya xalqının mübarizəsi hələ davam edir. Təbii ki, Azərbaycanın dəstəyi ilə..."





**Siyasi şərhçi Turan Rzayev isə hesab edir ki, rəsmi Bakı heç bir ölkənin daxili işinə qarışmır:** "Fransadan fərqli olaraq Azərbaycan bu ölkənin ərazi bütövlüyünə hörmət edir. Halbuki Paris keçmiş separatçı rejimin "liderləri" ilə təmaslar qurub, onları açıq şəkildə dəstəkləyirdi. Lakin nə bu gün kanak xalqının etirazları separatçılıq, nə də Azərbaycanın Yeni Kaledoniya təmsilçilərinə platforma tanıması separatizmə dəstəkdir. Azərbaycan Fransadan fərqli olaraq separatizmə yox, xalqların öz müqəddəratını təyinetmə hüququna hörmət edir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti də çıxışı zamanı "Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq" demişdi. Nazir Darmanin iddia edib ki, müstəqillik tərəfdarları guya Azərbaycanla hansısa "sövdələşmə" bağlayıblar. Mümkündür ki, o bunu Yeni Kaledoniya təmsilçilərinin Bakıya səfəri ilə əlaqələndirir. Lakin bu yanaşma da yalan və əsassızdır. Rəsmi Bakı Yeni Kaledoniya nümayəndələrinə, sadəcə, platforma tanıyır və bu da beynəlxalq hüquqa zidd deyil".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# ABŞ "xarici agentlər" haqqında qanunun müəlliflərinə sanksiya tətbiq edəcək

**ABŞ "demokratiyanı qorumaq məqsədilə" Gürcüstan rəsmilərinə sanksiya tətbiq edə bilər. APA-nın Tiflis müxbiri xəbər verir ki, bu barədə "Politico" məlumat yayıb. Bildirilib ki, nəşrin gördüyü qanun layihəsinə əsasən hakim "Gürcü Arzusu" partiyasından olan deputatlara, hüquq-mühafizə orqanlarının zabitlərinə, həmçinin Rusiyanın ölkədəki mümkün agentlərinə qarşı sanksiya tətbiq edilə bilər.**




Qeyd olunub ki, qanun layihəsi bu gün Cənubi Karolina ştatından olan respublikaçı nümayəndə Co Uiolson tərəfindən Konqresə təqdim ediləcək.

"Gürcüstanın Rusiya tipli "xarici agentlər" qanununun irəli sürülməsinə cavabdeh olan məmurlar ABŞ Konqresinə təqdim ediləcək yeni qanun layihəsinə əsasən aktivlərin dondurulması və səyahət qadağaları ilə üzləşə bilər", - məlumatda bildirilib.

Bu arada Gürcüstanın baş naziri İrakli Kobaxidze ölkə prezidenti Salome Zurabişvilinin "xarici təsir" qanununa veto qoyaraq müzakirə üçün bütün imkanları bağladığını deyib.

APA-nın Gürcüstan bürosu xəbər verir ki, Kobaxidze bu barədə keçirdiyi brifinqdə bildirib. O deyib ki, Gürcüstanın tərəfdaşları veto prosedurlarını mövqelərin uzlaşdırılması üçün istifadə etmək niyyətində olub, lakin Zurabişvili qanunu kobud surətdə veto edərək sağlam müzakirələr üçün bütün imkanları bağlayıb.

Kobaxidze əlavə edib ki, Gürcüstanda keçirilən sosial sorğuların nəticəsinə görə, ölkə əhalisinin 60%-dən çoxu qanunun qəbul edilməsini dəstəkləyir.

Xatırladaq ki, Prezident Salome Zurabişvili mayın 18-də mübahisəli qanun layihəsinə veto qoyub. Bundan başqa, o, Fransa prezidenti Emmanuel Makrona etirazlar fonunda Gürcüstana gəlməsi üçün müraciət edib.

Spiker Şalva Papuaşvili isə bildirib ki, Gürcüstan parlamenti prezidentin "xarici agentlər" haqqında qanuna vetosunu ləğv edəcək.


Şalva Papuaşvili

# Gürcü spiker avropalı siyasətçiləri ikiüzlülükdə ittiham etdi

**Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvili bəzi avropalı siyasətçilərin "xarici təsir" qanunu ilə bağlı mövqeyini ikiüzlülük hesab edir. APA-nın Tiflis müxbiri xəbər verir ki, spiker bu barədə mətbuata açıqlamasında bildirib.**

O, bəzi siyasətçilərin "xarici təsisin şəffaflığı haqqında" qanun layihəsini öz ölkələrində rəva gördüklərini, lakin Gürcüstanda qəbul edilməsinə qarşı çıxdıqlarını bildirib. Papuaşvili Aİ-nin özünün də xarici təsirin şəffaflığı ilə bağlı vahid direktiv hazırladığını xatırladıb.

"Ursula fon der Leyen Avropa Komissiyasının prezidentidir və Avropa İttifaqında (Aİ) xarici təsirin şəffaflığı məsələləri ilə bağlı vahid direktiv Avropa Komissiyasının təşəbbüsüdür. Gürcüstana qarşı bu bir qədər ikiüzlü mövqe Avropa İttifaqında direktivin hazırlanması ilə özünü büruzə verir. Fransa, İngiltərə və Amerika da bu məsələ ilə məşğul olurlar və bir çox ölkələr oxşar tədbirləri görürlər. Siz bizim ətrafımızdakı prosesləri görürsünüz. Zərərli təsirlərdən qorunmaq və Gürcüstanda təhlükəsiz mühitin saxlanılması üçün istənilən xarici təsir gürcü xalqına aydın olmalıdır", - Papuaşvili deyib.

YENİ MÜSAVAT
N 87 (8460) 21 may 2024



# Uzi bölgəsində üzücü olaylar

Zamin HACI
zaminhaci@gmail.com

**Həmişə belə məqamlarda olduğu kimi, indi də çoxlu gizli dünya analitikləri ortaya çıxmışdır. Əminliklə düşmən dərin dövlətinin qəzada barmağı olması iddia edilir. Niyə edilməsin? Ən rahat yol budur axı. Əks halda, dumanda helikopterə minməyə niyə məcbur olublar, niyə həmin qurğu "şeytan Əmrikə"nin istehsalıdır, niyə qəza yerini başqa "şeytan qulluqçusunun uçağı" tapdı və sairə və ilaxır kimi sonsuz suallara cavab vermək lazım gələr.**

O sualların cavabı isə insana, onun azadlığına hörmət qoyulmayan sistemin, quruluşun varlığında gizlənir. Bu, dərin dövlət işi deyil, dərin zillət işidir. Məsələn, bəlkə o bədbəxt pilot da bilirdi ki, qatı dumanda, dağlıq ərazidə helikopterlə uçmaq potensial intihar cəhdidir, ancaq həmin "Şərqi Azərbaycan ostanı" ərazisində normal yerüstü magistral yollar yoxdursa, dövlətin şefi bir yerdən başqa yerə nə ilə getsin? O bölgədə yaşayan türklərə qarşı etnik düşmənçilik üzündən inkişaf yoxdur, ancaq qrunt yollar və az-maz aqrar sektor var. Hələ də bölgə camaatı orta əsrlər şəraitində yaşayır. Cəfər Pənahinin, Abbas Kiarostaminin, Məhəmməd Rasuloff-un sənədli və psevdo-sənədli, bədii filmlərinə baxsanız nə yazdığımı anlayarsınız.

Prinsipcə, hazırda rəsmi şəkildə 1446-cı ildə yaşayan dövlətdən ayrı nəsə gözləmək də olmaz. Məşhur aforizmi bu şəkildə dəyişə bilərik: "Təqvim - taledir".

Tərslikdən, qəza bölgəsinin adında başqa gizli işarə də var. Fikir verdinizmi? Uzi adlı yaşayış məskəni yaxınlığında qəza olub! Buyurun, ateistlər. "Uzi" - İsrailin istehsal elədiyi qısa qundaqlı, məşhur pistolet-pulemyotun adıdır. Vəssalam. Dairə qapanmışdır. Qalır məsciddən bunu elan eləmək. Xüsusilə ağlar səslə elan edilməlidir. Effekti gücləndirdiyinə qaranti var.

Niyə qırx ildir nəhəng bir dövləti az qala bütün dünya ilə düşmən eləyirsən, niyə insanları azadlıq arzusuna görə krandan asırsan, kəkili yaylıqdan çıxan qadınları döyüb, zorlayıb öldürürsən - bunlar da hamısı zirzəmidə oturan 300 masonun bəd əməlləridir. Paytaxtın böyründə Ukraynaya uçan sərnişin təyyarəsini də bir neçə il qabaq səhvən vuran şeytanın agentləri olmuşdu. Azərbaycan səfirliyinə basqın edən lap şeytanın buynuzlusu idi! Həri.

Ümumiyyətlə, hazırda bütün dünyada şeytan qol-qanad açıb, insanlara zülüm edir. Lənətə gəlsin onu. İmkan vermir musiqi festivallarına basqın edib yarıçılpaq qızları zorlayasan, öldürüb maşının kuzovuna tullayasan. Görmədinizmi, Malmödə nə oyunlardan çıxırdılar? Lap Sodom və Qomorranın zırpısı idi.

Sevindirici haldır ki, artıq dünya xalqları oyanır. Qreta Tunberqi Fələstin şərfində görəndə gözümüz doldu. Təbii, Slovakiya baş naziri Fitso müəllimin güllələnməsi də dərindəki şeytan barmağının çəkdiyi tətik sayəsində baş tutmuşdur, bunu bilməyə nə var? Sadəcə, gərək slovak xalqı öz Polad Alemdarını, fars xalqı da Mematisini yetişdirsin. Zaman gözləmir. Ümid edək gələn seçkilərdə Fitso müəllimin partiyası 22 faizdən çox səs toplayacaqdır. Yoxsa bu qanlar nahaqdan axırmı? Hayır. Toprak əgər uğrunda ölən varsa vətəndir.

Kann festivalına filmi çıxan rejissora 8 il həbs cəzası kəsmişdilər, o da gizli yollarla aradan çıxmışdı. İranda nə yaxşı hələ belə yollar, dağlar, meşələr qalır - həmin günlərdə düşünmüşdüm. Ancaq indi məlum olur o yollar və dərələr kiminə nicat yolu olur, kiminə son mənzil.

Rejissoru vaxtında tuta bilsəydilər, bəlkə qəza da olmazdı. Dünyanın sirrindən hər kəs qanmır.

Elə bugünlərdə bir dostumun mesajını aldım: "Məncə, Yeni Kaledoniya sakinləri İmişlinin Qaradonlu kəndindən köçüblər". Mümkün deyilmi? Mümkündür. Şeytan adamı hara istəsə aparır...




# Lukaşenkonun İrəvanı narahat edən mesajı - Qafqaza cavabdehlik İlham Əliyevdə..

## Politoloq: "Prezident İlham Əliyev indi təkcə Azərbaycan yox, həm də bütün Cənubi Qafqaz uğrunda mübarizə aparır"

**Ermənistanla birgə hərbi, siyasi, iqtisadi ittifaqda təmsil olunan Belarus prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana səfəri və səfər çərçivəsində işğaldan azad olunmuş Füzulidə, Şuşada olması İrəvanda müxtəlif reaksiyalar doğurub.**

Lukaşenkonun Azərbaycan və Prezident İlham Əliyev haqqında xoş ifadələr, işğaldan azad olunmuş torpaqların dirçəldilməsində iştirak etmək niyyətində olması ermənilərdə suallar yaradıb. Lukaşenkonun Azərbaycana səfəri eyni hərbi-siyasi, iqtisadi ittifaqda təmsil olunduğu Ermənistanda çox ciddi narahatlıq və qısqanclıqla qarşılanıb. Belarus liderinin Azərbaycanı Cənubi Qafqazın təhlükəsizliyinin təminatçısı qismində görməsi barədə verdiyi bəyanatını Rusiyanın bəzi media orqanları da xüsusi qabardıb.

**"Yeni Müsavat" yada salır ki, Lukaşenko birgə mətbuat konfransında fikirlərini belə ifadə edib:** "Tanrıya şükür olsun ki, burada Azərbaycanın timsalında olduqca güclü, normal lider ölkə mövcuddur. Siz Qafqaz regionunu nəzarətdə saxlamağa qadirsiniz. Bu, artıq təkcə Azərbaycana görə məsuliyyət daşımaq demək deyil, siz artıq bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz, biz - Qafqazda yaşamayan xalqlar buna çox böyük ümid bəsləyirik. Zaman sizi seçib, bizdə belə deyirlər və siz lider olaraq Qafqaz regionuna görə məsuliyyət daşıyırsınız. Əminəm ki, siz bunu edəcəksiniz, həm də istərdim ki, tez edəsiniz, siz bunu bacarırsınız. Siz bütün dünyaya göstərdiniz ki, sizdən əvvəlki nəsillərin dövründə həll olunmayan ən mürəkkəb məsələləri həll etməyi bacarırsınız". Bu, hər şeydən öncə Rusiyaya çox yaxın olan, prezident Putinin də rəylərindən bəhrənən Lukaşenkonun Azərbaycana və onun lideri İlham Əliyevə verdiyi yüksək qiymətdir. Bəs İrəvanı narahat edən nədir?

**Professor Qabil Hüseynlinin "Yeni Müsavat"a bildirdiyinə görə, Prezident İlham Əliyev XXI əsrin ən populyar və qətiyyətli liderlərindən biridir. Onun fikrincə, Lukaşenko kimi bir çox siyasi liderlər İ.Əliyevi erudiksiyalı siyasətçi, beynəlxalq münasibətlərin reallıqlarını bilən dövlət xadimi kimi qəbul edirlər:** "Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü kimi qalsa da, hər zaman o blokun üzv ölkələri ilə Azərbaycanın münasibətləri daha yaxşı olub, nəinki İrəvanın. Bunu 44 günlük müharibə dövründə də görmək olardı, daha əvvəl də. İndi Ermənistan bu təşkilatda işini dondurub, amma aktiv fəaliyyət göstərsə belə üzv ölkələrdən bizə qarşı istifadə edə bilməz. Çünki tələbləri ədalətsiz və səhvdir. Bu gün davam edən delimitasiya prosesi də məhz Ermənistanın əvvəllər KTMT əleyhinə səsləndirdiyi ittihamların əsassız olduğunu təsdiq edir. Bu nöqteyi-nəzərdən Belarus prezidentinin fikirləri həqiqətən bir daha dilə gətirilməsidir. Azərbaycan lideri regionda dayanıqlı sülhün və təhlükəsizliyin bərqərar olmasında hamıdan çox çalışır".

**Q.Hüseynlinin sözlərinə görə, Belarus işğaldan azad edilmiş ərazilərdə 412 ailəlik yaşayış məntəqəsi salacaq, halbuki KTMT-də bu ölkə ilə birgə təmsil olunan Ermənistan həmin torpaqlarda daşı daş üstündə qoymayıb:** "Lukaşenko "siz artıq bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz" deməklə bütün region ölkələrinə vacib bir fikir çatdırmış oldu. Cənubi Qafqazda təhlükəsizliyin davamlı təmin olunması üçün Azərbaycan səylərini artırıb. Hazırda ikitərəfli danışıqlar modeli də rəsmi Bakının təşəbbüsü və diktəsi altında inkişaf etdirilir. Cənab İlham Əliyev son çıxışlarında təkrar olaraq vurğuladı ki, danışıqlarda vasitəçiyə ehtiyac yoxdur. Mən inanıram ki, işğal və separatizm faktına son qoymuş Ali Baş Komandan tarixi sülh müqaviləsinin bağlanmasına da bir siyasi lider, diplomat, dövlət rəhbəri kimi nail olacaq. Ona görə istər Lukaşenko, istər digər ölkələrin başçılarının Azərbaycan prezidentindən gözləntiləri var, ona böyük ümid bəslənir, bir sözlə, ciddi etimad qazanıb. Eyni zamanda ayrı-ayrı dost ölkələr azad edilən ərazilərin bərpasına dəstək verirlər, amma əsas güc Azərbaycan dövlətinin üzərinə düşür. Prezident İlham Əliyev azad edilən ərazilərin yenidən qurulmasında da bütün dünyaya mesaj verir ki, torpaq əsl sahibləri Qarabağa necə yanaşır, işğalçı qüvvələr 30 ildə torpaqlara necə nəzarət ediblər..."

**Ədalət Partiyasının sədr müavini Elxan Şükürlünün sözlərinə görə, Prezident İlham Əliyev indi təkcə Azərbaycan yox, həm də bütün Cənubi Qafqaz uğrunda mübarizə aparır:** "Onun 44 günlük Vətən savaşından sonra regionda sülh və əməkdaşlıq platforması kimi təqdim etdiyi 3+3 formatı hazırda ölkəmizi Qərbin açıq hədəfinə gətirsə də, bütün Cənubi Qafqazın yeganə xilas düsturu sayılır. Qərbin şirnikləndirici və təhrikçi davranışlarına aldanmayan Əliyevin Rusiya prezidenti Putinlə qarşılıqlı hörmət, inam və etibara əsaslanan münasibətləri və həm də bu münasibətlər hesabına ölkəsinin əsas problemini həll edə bilməsi qonşu Gürcüstan və Ermənistanla yanaşı, elə Avropa İttifaqı və NATO-ya inteqrasiya kursu seçmiş Ukrayna və Moldova üçün də yeni cəlbedici nümunəyə çevrilib və yeni hərəkatlara təkan verib".

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

MÜSAVAT
N 87 (8460) 21 may 2024

# Dəhşətli qəza İranın siyasətini dəyişəcəkmi - fakt və rəylər

## Cənub qonşumuzla münasibətlərimizi pozmaq cəhdləri əbəsdir; Tehranda səfirliyimiz iyulda bərpa olunacaq; **Azərbaycan Prezidenti:** "Rəisinin simasında İran xalqı bütün həyatını ölkəsinə fədakarlıqla və sədaqətlə xidmət etmiş görkəmli dövlət xadimini itirdi"

**İran İslam Respublikasının Prezidenti İbrahim Rəisinin və digər rəsmi şəxslərin olduğu helikopterin Şərqi Azərbaycan ərazisində qəzaya uğraması xəbəri şok effekti verib, dünyanın bütün xəbər məkanında əsas müzakirə mövzusuna çevrilib.**

Qeyd edək ki, mayın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin iştirakı ilə Araz çayı üzərində inşa edilmiş "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasimi çox yüksək səviyyədə keçirildi, qarşılıqlı dostluq, qonşuluq mesajları verildi. Həmin günün sonrakı saatlarında İran prezidentinin helikopterinin Verzeqan şəhəri yaxınlığında sərt eniş etməsi, qəza nəticəsində bütün sərnişinlər və ekipaj üzvlərinin həlak olması xəbəri Azərbaycanda da böyük əks-səda və acı təəssüf hissi doğurdu.

İranın onlarla xilasetmə qrupu dərhal hərəkətə keçsə də, qəza yerini müəyyənləşdirmək həm gecə saatlarının olması, həm də pis hava şəraitindən mümkün olmadı. Gecə yarısı məlum oldu ki, qardaş Türkiyədən İran prezidenti İbrahim Rəisi və digər rəsmi şəxslərin olduğu helikopterin qəzaya uğraması ilə bağlı axtarış yerlərinə "AKINCI" pilotsuz uçuş aparatı və "Cougar" tipli helikopter göndərilib.

Mayın 20-də səhər saatlarında məlum oldu ki, "AKINCI"nın köməyi ilə İran prezidenti Rəisinin qəzaya uğramış helikopterinin qalıqları tapılıb. Qızıl Aypara Cəmiyyətinin rəhbəri Pirhüseyn Kulivənd İran Dövlət Televiziyasına açıqlamasında bu barədə ilkin xəbər açıqladı.

Yayılan məlumatlardan aydın oldu ki, İran prezidenti İbrahim Rəisinin helikopteri qəza nəticəsində tamamilə yanıb. "Reuters" agentliyi adı açıqlanmayan rəsmiyə istinadən məlumat yaydı: "Prezidentin qəzaya uğramış helikopterinin yerini aşkar etdikdə sərnişinlərin sağ olmasına dair heç bir əlamət yox idi". APA-nın İRNA-ya istinadən verdiyi məlumata görə, bunu Qızıl Aypara Cəmiyyətinin rəhbəri Pirhüseyn Kulivənd deyib. O bildirib ki, xilasetmə qrupları helikopterin qalıqlarını tapıb, lakin sərnişinlərin sağ olmasına dair heç bir əlamət olmayıb.

İran prezidenti İbrahim Rəisinin də olduğu helikopterdəki heyət qəzadan sonra anındaca həlak olub. Musavat.com xəbər verir ki, bu barədə İranın Qızıl Aypara Cəmiyyəti teleqram kanalında məlumat yayıb. Cəmiyyət qeyd edib ki, qəzaya uğrayan helikopterin yeri tapıldıqda, onun sərnişinlərinin canlı olmasına dair heç bir əlamət aşkar edilməyib.

Qızıl Aypara Cəmiyyətinin sədri Pir Hüseyn Kolivənd ötən gün içərisində İran prezidenti İbrahim Rəisinin və digər dövlət rəsmilərinin də olduğu helikopter qəzasının detallarını açıqlayıb. Pir Hüseyn Kolivənd İran prezidentini daşıyan helikopterin 2500 metr hündürlükdən yerə çırpıldığını bildirib. O qeyd edib ki, faciədən sonra ilk dəqiqələrdə bütün sərnişinlər həyatını itirib.

"Yaxşılıq edənlər belə mükafatlandırılır". Məlumata görə, bu sözlər İbrahim Rəisinin X hesabında paylaşılıb. Bu, İran prezidentinin son paylaşımı olub.

Yeri gəlmişkən, TASS-ın yaydığı məlumata görə, İran prezidenti İbrahim Rəisi bazar günü Ermənistana səfər etməyi planlaşdırsa da, səfər son anda təxirə salınıb. O cümlədən bazar günü Rəisinin Ermənistan ərazisində nəqliyyat dəhlizlərinin açılışında iştirak edəcəyi gözlənilirdi.

**Prezident İlham Əliyev İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneyi həzrətlərinə başsağlığı verib. Başsağlığının mətnində deyilir:**

"Möhtərəm Ayətullah Xameneyi həzrətləri!

Dost və qardaş İran İslam Respublikasına və xalqına üz vermiş ağır itki - İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahianın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olması xəbəri bizi olduqca sarsıtdı.

Prezident Seyid İbrahim Rəisinin simasında İran xalqı bütün həyatını ölkəsinə fədakarlıq və sədaqətlə xidmət etmiş görkəmli dövlət xadimini itirdi. Onun əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Bu hüznlü gündə Uca Allahdan dost və qardaş İran xalqına səbir və dözüm diləyir, kədərinə şərik olduğumuzu bildirir, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!"

**Azərbaycan Xarici İşlər Nazirliyi də İrana başsağlığı verib. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İran prezidenti İbrahim Rəisi və xarici işlər naziri Hüseyn Əmir Abdullahianın həlak olması ilə əlaqədar İran xalqına başsağlığı verib. Bu barədə XİN başçısı X-da yazıb.** "İran İslam Respublikasının Prezidentinin, xarici işlər naziri, əziz dostum Hüseyn Əmir Abdullahianın və digər rəsmi şəxslərin həlak olması xəbəri məni dərindən sarsıtdı. Bu faciəvi qəzada həlak olanlara Allahdan rəhmət diləyir, dost İran xalqına dərin hüznlə başsağlığı verirəm", - o qeyd edib.

Milli Məclisin sədri Sahibə Qafarova İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahianın və digər müşayiət edən şəxslərin helikopter qəzasında həlak olmaları ilə bağlı İran İslam Respublikası İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibafa başsağlığı verib.

Azərbaycanın baş naziri Əli Əsədov İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahianın və digər müşayiət edən şəxslərin helikopter qəzasında həlak olmaları ilə bağlı İranın Birinci vitse-prezidenti Məhəmməd Moxberə başsağlığı məktubu ünvanlayıb.




**Sahib Alıyev:** "İndiki siyasi konfiqurasiyanın qorunub saxlanacağı təqdirdə, qonşu dövlətin regional siyasətində hər hansı dəyişiklik gözləmirəm"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İran İslam Respublikasının Prezidenti İbrahim Rəisi və onu müşayiət edən nümayəndə heyətinin helikopter qəzasında həlak olmaları ilə bağlı başsağlığı verib. Bu barədə Rəcəb Tayyib Ərdoğanın rəsmi X hesabında qeyd edilib.** "Helikopter qəzasında həlak olduğunu öyrəndiyimiz dəyərli həmkarım, qardaşım, İran İslam Respublikasının Prezidenti cənab İbrahim Rəisiyə Allahdan rəhmət diləyirəm. İranın xarici işlər naziri və mərhum Rəisi ilə eyni helikopterdə həyatını itirən digər insanlara da Allah rəhmət eləsin. Dost və qardaş İran xalqına və hökumətinə, xüsusilə İran İslam Respublikasının Dini Rəhbəri cənab Əli Xameneyiyə, cənab Prezidentin və digər həlak olan şəxslərin ailələrinə dərin hüznlə başsağlığı verirəm. Mən onun vəzifədə olduğu müddətdə İran xalqının və regionumuzun sülh naminə göstərdiyi səylərin şəxsən şahidi olmuş bir hörmətkar kimi cənab Prezidenti hörmət və minnətdarlıqla xatırlayıram. Biz Türkiyə olaraq, dəfələrlə etdiyimiz kimi, bu çətin və kədərli günlərdə qonşumuz İranın yanında olacağıq", - paylaşımda vurğulanıb.

**Rusiya prezidenti Vladimir Putin də İranın Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneyiyə prezident İbrahim Rəisinin həlak olması ilə bağlı başsağlığı verib.**

**Bu barədə Rusiya KİV-ləri məlumat yayıb.** "O, Rusiyanın əsl dostu kimi ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin inkişafına əvəzsiz töhfələr verib, onların strateji tərəfdaşlıq səviyyəsinə çatdırılması üçün böyük səylər göstərib", - Rusiya dövlət başçısı vurğulayıb. (Report)

Qonşu ölkəyə kimin rəhbərlik edəcəyi barədə suala da aydınlıq gətirilib. İranın 1-ci vitse-prezidenti Məhəmməd Moxber İran prezidentinin vəzifəsini icra edəcək. İran konstitusiyasının 131-ci maddəsinə əsasən, İran prezidenti öldükdə, vəzifəsindən uzaqlaşdırıldıqda, istefa verdikdə, 2 aydan çox xəstələndikdə İranın Ali Liderinin razılığı əsasında 1-ci vitse-prezident prezidentin vəzifələrini müvəqqəti icra edir. İran konstitusiyasına əsasən, maksimum 50 gün ərzində yeni prezident seçilməlidir.

İran prezidenti İbrahim Rəisi və xarici işlər naziri də göyərtəsində olduğu helikopterin qəzasında həlak olanların hamısının cənazələri hadisə yerindən çıxarılıb. APA-nın "Al-Jazeera" telekanalına istinadən məlumatına görə, bu barədə Qırmızı Aypara Cəmiyyətinin İran üzrə rəhbəri Pir Hüseyn Kolivənd deyib. O bildirilib ki, axtarış başa çatıb, cənazələrin hamısı sonrakı proseslər üçün Təbrizə yola salınıb.

Faciəvi şəkildə həyatını itirənlərdən biri də xarici işlər naziri Hüseyn Əmir Abdullahiandır. Bəs Abdullahianı kim əvəz edəcək? Musavat.com xəbər verir ki, İran hökumətinin sözçüsü Əli Bəhadori Cəhrominin sözlərinə görə, mərhum XİN başçısının vəzifəsini onun müavini Əli Baqeri Kəni icra edəcək. O qeyd edib ki, artıq bununla bağlı Nazirlər Kabinetinin iclası keçirilib və yekun qərar qəbul edilib. 20 may tarixli qərara əsasən, Əli Baqeri Kəni hökumətin xarici məsələlər üzrə əlaqələr komitəsinin məsul şəxsi təyin olunub.

İran prezidenti vəzifəsini icra edən, birinci vitse-prezidenti Məhəmməd Möhbər yaxın günlərdə ölkəni idarə etmək üçün 6 xüsusi komitə yaradıb. Bu barədə İran hökumətinin nümayəndəsi məlumat yayıb.

Prezident Rəisi və digərlərinin ölümü Azərbaycanla münasibətlərdə dəyişikliyə səbəb ola bilərmi? Regional siyasətdə dəyişiklik mümkündürmü?

**Deputat Sahib Alıyev "Yeni Müsavat"a açıqlamasında hər hansı narahatlığın yarana biləcəyini istisna etməsini aşağıdakı arqumentlərlə əsaslandırdı:** "İranda 1979-cu il inqilabından üzü bəri o ölkənin xarici siyasət strategiyasını müəyyənləşdirən əsas fiqur prezident yox, ölkənin ali dini lideri olub və indi də belədir. Ona görə də indiki siyasi konfiqurasiyanın qorunub saxlanacağı təqdirdə, qonşu dövlətin regional siyasətində hər hansı dəyişiklik gözləmirəm. Helikopter qəzasında həlak olanlara rəhmət diləyir və bildirirəm ki, İranın mərhum prezidentinin son səfərində sərgilənən iki ölkə arasında qarşılıqlı faydaya dayanan əməkdaşlıq siyasəti dövlətlərimizlə xalqlarımızın maraqlarına tam cavab verir. Ümid edirəm ki, bu siyasət davam etdiriləcək".

Bu arada bəlli olub ki, Azərbaycanın Tehranda səfirliyi iyuldan yeni binada fəaliyyətə başlayacaq.

Bu barədə Axar.az-a diplomatik mənbədən daxil olan məlumatda bildirilib.

Qeyd edilib ki, İran Azərbaycan səfirliyinin fəaliyyətinin təhlükəsizliyi üçün yeni bina ayırıb və hazırda orada uyğunlaşdırılma işləri aparılır.

Qeyd edək ki, İranda prezident İbrahim Rəisinin vəfatı ilə əlaqədar milli matəm elan edilib. İranın Azərbaycandakı səfirliyinin binası önündə adıçəkilən ölkənin dövlət bayrağı endirilib.

Son məlumata görə, İran prezidenti İbrahim Rəisi və onu müşayiət edən şəxslərin dəfn mərasimi mayın 21-də Təbriz şəhərində keçiriləcək. "Report" TASS-a istinadən xəbər verir ki, bu barədə "Mehr" agentliyi məlumat yayıb.

Son məlumatda isə bildirilir ki, helikopter qəzasında həlak olan İran Prezidenti İbrahim Rəisinin cənazəsi çərşənbə axşamı günü Təbrizdən doğulduğu Məşhəd şəhərinə göndəriləcək.

Azərtac xəbər verir ki, bu barədə Fars agentliyi məlumat yayıb.

**Allah rəhmət eləsin!**

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# "Yastıq altındakı pullar"ın həcmi artır: nə bank, nə qızıl...

## Ekspert əhalinin öz pullarını banklara əmanət etməsinə həvəsləndirilməsi üçün şərtləri açıqladı

**Azərbaycanda banklardan kənarda nağd pulun həcmi yüksək olaraq qalır. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, 2023-cü ildə manatla pul bazası 19.6 faiz artaraq 20.9 milyard manat təşkil edib. İl ərzində pul bazasına Mərkəzi Bankın valyuta müdaxiləsi və vahid xəzinə hesabının qalığını dəyişimi artırıcı, sterilizasiya əməliyyatları isə azaldıcı təsir edən əsas amillər olub. Hesabat ilində manatla pul bazasının struktur elementi olan dövriyyədəki nağd pulun həcmi 17.3 milyard manata, manatla müxbir hesabların qalığı isə 3.5 milyard manata yüksəlib.**

Nağd pulun (M0) manatla geniş pul kütləsində (M2) xüsusi çəkisi ötən ilə nəzərən əhəmiyyətli dəyişməyərək ilin sonuna 44.9 faiz təşkil edib. Lakin il ərzində nağd pulun həcmi 19,4 faiz artıb.

Bu ilin birinci rübündə manatla geniş pul kütləsinin həcmi 34 milyard 453 milyon manata, nağd pulun həcmi isə 15 milyard 435 milyon manata bərabər olub.

Onu da qeyd edək ki, son illərdə Azərbaycanda nağd dövriyyənin azaldılması, əməliyyatların qeyri-nağd, yəni bank yolu ilə həyata keçirilməsinin təmin edilməsi istiqamətində çoxsaylı addımlar atılıb. Dövlət qurumlarının göstərdiyi bütün xidmətlər üzrə ödənişlərin qeyri-nağd aparılması məcburi xarakter alıb. Eyni zamanda ticarət, səhiyyə və digər özəl sahələrdə ödənişlərin bank kartları vasitəsilə həyata keçirilməsini stimullaşdıran mexanizmlər tətbiq edilir. Mərkəzi Bankın statistikasına əsasən, 2023-cü ildə Azərbaycanda bank kartları ilə 88,1 milyard manat ödəniş edilib ki, bu da 2022-ci illə müqayisədə 56 faiz çoxdur. Bankının illik "Rəqəmsal Ödənişlər İcmalı"nda qeyd edilir ki, illik ödənişlərin 49 milyard manatlıq hissəsi nağdsız ödənişlərdir. Bu isə 1 il əvvələ nisbətən 2 dəfə çoxdur. Beləliklə, il ərzində ölkədaxili əməliyyatlarda nağdsız hesablaşmaların xüsusi çəkisi 12,4 faiz bəndi artaraq 55,6 faizə çatıb.

Kartlarla nağdsız ödənişlərin böyük hissəsi elektron ticarət əməliyyatlarının payına düşüb. Hesabat dövründə elektron ticarət əməliyyatlarının sayı 2,2 dəfə artaraq 563,4 milyon ədəd, ümumi məbləği isə 2,1 dəfə artaraq 39,2 milyard manat olub.

İl ərzində təsərrüfat subyektlərində POS-terminal vasitəsilə aparılan əməliyyatların sayı 2,1 dəfə artaraq 416,6 milyon ədəd, ümumi məbləği isə 68,5 faiz artaraq 9,8 milyard manat təşkil edib. O cümlədən POS-terminallarla aparılan təmassız ödənişlərin sayı illik müqayisədə 2,2 dəfə artaraq 401,1 milyon ədəd, ümumi məbləği isə 82,5 faiz artaraq 8,9 milyard manat olub.

AMB bildirir ki, ödəniş kartlarının artması bu ilin mart ayında nağdsız ödənişlərin həcminə müsbət təsir göstərib. Belə ki, ay ərzində ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 1.6 dəfə artıb. 2024-cü ilin mart ayı ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 5 milyard 697 milyon manat təşkil edib. Həyata keçirilən nağdsız ödənişlərin 4 milyard 737 milyon manatı elektron ticarətin payına düşür. Qalan məbləğin 952 milyon manatı POS-terminallar, 8 milyon manatı isə özünə xidmət terminalları vasitəsilə gerçəkləşdirilib. İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 61.7 faizini təşkil edib.

Mütəxəssislərə görə, əldə edilən nəticələri yüksək qiymətləndirmək mümkün deyil. Bildirilir ki, burada əsas rolu əhalinin öz pulunu banklara etibar etməməsi oynayır: insanların mühüm hissəsi pensiya və maaşlar karta köçən kimi gedib pulu hesabdan çıxarır, alış-verişlərini nağd qaydada həyata keçirməyə üstünlük verirlər. Əhalinin banklara etibar etməməsini isə bir çox ekspertlər bankların bağlanması hallarının çox olması ilə izah edirlər. Onların fikrincə,



son zamanlar bir-birinin ardınca bağlanan banklar insanlarda onlara olan güvəni azaldıb. Bu səbəbdən də bir çox vətəndaşlar pullarını evdə saxlamağa üstünlük verirlər. Bəziləri qızıl almağa üstünlük verir. Belə hesab edilir ki, qızıl gələcək üçün ən yaxşı yatırımdır. Mütəxəssislərin fikrincə, ən sərfəli investisiya daşınmaz əmlak sahəsidir. Daşınmaz əmlak, obyekt alınması, ev alınması, torpaq sahəsi alınması və s. gələcəkdə ən azından vətəndaşlar üçün itkinin olmamasına, yəni itki ilə üzləşməməsi baxımından daha məqsədəuyğun yatırım hesab edilir. Yeri gəlmişkən, Azərbaycan vətəndaşları ötən ay Türkiyədə 54 mənzil alıb. Əksəriyyət isə pulu xarici valyutada saxlamağa üstünlük verir. Bu faktlar həm də onu gstərir ki, 2015-ci il devalvasiya qorxusu hələ də keçməyib.

Mütəxəssislər hesab edirlər ki, "yastıq altında" böyük həcmdə nağd pulun saxlanılması real sektorun maliyyələşdirilməsi baxımından arzuolunan deyil. Çünki potensial olaraq həmin pulların çox hissəsinin banklar vasitəsilə iqtisadiyyata yönəldilməsi mümkündür. Evlərdə saxlanılan nağd pulun həcminin çox olması banklara inamın artırılması istiqamətində işlərin daha da sürətləndirilməsini prioritetləşdirir. Bu kontekstdən, zəif bankların bağlanması deyil, onların konsolidasiyası, yəni birləşdirilməsi mexanizminə ehtiyac var. Bu, nağd vəsaitlərin banklar vasitəsilə real sektora yönəlməsinə gətirib çıxara bilər.

**İqtisadçı-ekspert Rəşad Həsənov bildirir ki, banklardankənar pul kütləsinin artması heç də arzuolunan hal deyil:** "Lakin son iki ildə bunu dəstəkləyən obyektiv faktorlar var: həm fiskal ekspansiya, həm inflyasiyanın yüksək həddə çatması, həm də 2023-cü ildə bir neçə bankın bağlanması qərarları banklara olan inamın nisbətən azalmasına, əmanətlərin həcminin artma sürətinin düşməsinə gətirib çıxarıb. Bunun nəticəsində əmanət qoyuluşlarında 10 faiz artım olsa da, M0 - banklardan kənarda olan vəsaitlərin həcmi daha sürətlə artdı. Nəzərə almaq lazımdır ki, inflyasiyanın yüksək səviyyəsi cibdə daha çox nağd pulun saxlanmasını stimullaşdırır. Çünki iqtisadiyyatın strukturunda kölgədə qalan hissəsinin payı hələ də yüksək olaraq qalır. Bu da nağd vəsaitlərə tələbi artıran amillərdən biri kimi çıxış edir".

**Ekspertin sözlərinə görə, əmanətlərin artım sürətində ki zəiflik bankların əllərində olan likvid vəsaitləri yerləşdirməyə şərait olmamasından irəli gəlir:** "Uzun müddət boyunca banklar malik olduqları yüksək həcmdə likvid vəsaitləri yerləşdirməyə çətinlik çəkdilər. Bankların əllərində likvid vəsait varsa, nədən stimullaşdırıcı vasitələrlə əlavə əmanətlər cəlb etsinlər ki? Mərkəzi Bank bu izafi likvidliyi aradan qaldırmaq üçün xeyli addımlar atdı, nəticədə bu ilin əvvəlindən bank əmanətlərinin cəlbediciliyi artdı. Lakin hesab edirəm ki, burada əsas stimullaşdırıcı real iqtisadiyyatın artımıdır. Real iqtisadiyyat inkişaf edərsə, banklar likvid vəsaitləri rahatlıqla və güvənlə yerləşdirə bilərsə, onda əmanət şərtləri getdikcə daha cəlbedici olacaq, beləliklə də nağd pul kütləsi azalacaq. Burada həmçinin bank sektorunda özündə sağlam rəqabət mühitinin formalaşdırılması amili də mühüm rol oynayır".

**İqtisadçı-ekspert Pərviz Heydərovun sözlərinə görə, əhalinin öz pullarını banklara əmanət etməsinə həvəsləndirilməsi üçün şərtlər var:** "Ölkəmizdə sərbəst vəsaitlərin banklara cəlb olunması sahəsində və yaxud da belə qeyd edək ki, əmanət yerləşdirilməsi sahəsində stimullaşdırıcı amillər deməzdim ki, qənaətbəxş səviyyədə deyil. Ən azından onu nəzərə çatdırım ki, manatla əmanət yerləşdirilməsi üzrə banklar kifayət qədər yüksək faiz təklif edirlər. İndikindən artıq divident vədi banklar üzrə kredit faizlərinə təsir edə bilər. Sadəcə olaraq, burada başqa səbəblər var. Bunlardan birincisi, banklara inam məsələsidir. Ölkədə bank sektoruna əhalinin inamı və etibarı tələb olunan səviyyədə deyil. Son illər ərzində bu sahədə vəziyyət hələ xeyli yaxşılaşıb. Bununla belə, sektorda həddindən artıq təmərküzləşmə, ölkədə fəaliyyət göstərən bankların 5-6-sı istisna olmaqla, hər an bağlanma təhlükəsinin olması və sair, etibarı azaldır. Bundan əlavə, manatın dəyərinə də inam möhkəm deyil, devalvasiya gözləntisi həmişə söhbət mövzusu sayılır bizdə. Hərçənd son illər ərzində manatın dəyərinə də inam xeyli dərəcədə yaxşılaşıb. Ancaq bu inam kövrək xarakter daşıyır. İkincisi, inflyasiyanı da nəzərə almaq lazımdır. Manatın alıcılıq qabiliyyətinin ildən-ilə enməsi də banklara vəsait yerləşdirilməsinə maraqsızlıq yaradan səbəblər sırasındadır... Şərt o deyil ki, devalvasiya baş versin. Bank depozitləri də inflyasiyaya uğrayır. Yəni demək istədiyim odur ki, banklardan kənarda olan manatın həcminin artmasında bunun da rolu var".

**Ekspert qeyd edir ki, banklar dollarla əmanətlərə çox az faiz təklif edir:** "Buna görə də əhali əlinə keçən pulu dollara çevirib evdə saxlamağı, yaxud daşınmaz əmlaka yatırmağı daha üstün tutur. Bu vəziyyəti dəyişmək üçün həssas davranış tələb olunur: bir tərəfdən əmanət faizlərini artırmaq kredit faizlərini də artıracaq, digər tərəfdən, dollarla əmanətləri stimullaşdırmaq başqa bir təhlükə yaradacaq. Bu baxımdan, bankların bağlanmasını dayandırıb, onların fəaliyyətinin sağlamlaşdırılmasına, bank sektorunda real və azad rəqabət mühitinin yaradılmasına ehtiyac var. Daha bir addım qiymətli kağızlar bazarının inkişafı, fond birjasında ticarət olunan qiymətli kağızları təklifini artırmaq olar. SOCAR kimi digər gəlirli şirkətlərin də fərdi şəxslər üçün əlçatan olan qiymətli kağızlarının dövriyyəyə buraxılması nağd pulların real iqtisadiyyata investisiyasına imkan yaradar".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması



YENİ MÜSAVAT
N 87 (8460) 21 may 2024

# Erməni kilsəsi sülh əleyhinə... - keşiş Srbazan qana susayıb

Vətən müharibəsi erməni xalqını ağıllandırır ki, mifik yox, real Ermənistan qurulması üçün yol barışıq sənədidir - bunu bir də revanşistlər anlasa...

**Keşiş Baqrat Srbazan sülh əleyhinə dövriyyəyə buraxılan fiqurdur. Qana susamış kilsə yenə "artsax" xülyası ilə səhnəyə çıxır. Lakin erməni cəmiyyəti İrəvanın Respublika meydanına toplaşmır, azsaylı aksiya iştirakçıları isə revanşizm əhval-ruhiyyəsinin daşıyıcılarıdır.**



Artıq mitinqlər səngiyir və sülh, insanlıq əleyhinə çıxan qüvvələr növbəti fiasko ilə üz-üzədirlər. Bu, Vətən müharibəsinin nəticələridir. Erməni xalqı evlərə tabut getməsini daha istəmir. Onlar yeni müharibənin növbəti ağır məğlubiyyət olacağını anlayırlar. Axı kimə lazımdır yeni savaş? Bu, daha neçə min erməni əsgərinin cəsədə çevrilməsi deməkdir. Ona görə də "artsax" və "Böyük Ermənistan" kimi nağıllarla yenidən meydanlara çıxanlar sülh prosesinə əngəl ola bilmədilər. Çünki baş nazir Nikol Paşinyan kilsənin, II Qareginin, keşiş Baqratdan fərqli olaraq xalqa açıq şəkildə bəyan etdi ki, mifik Ermənistan yox, real Ermənistan lazımdır.

Bu fikrin açması odur ki, sərhədlər dəqiqləşməli, Ermənistanın harada başlayıb, harada bitdiyi məlum olmalıdır. O baxımdan sülh əleyhinə gedən kilsə və onun Tavuş üzrə arxiyepiskopu Baqrat Qalstanyanın başladığı hərəkat iflasa uğradı. Keşişin pafoslu səslənən "Vətən uğrunda Tavuş" hərəkatı rüsvayçılıqla finişə çatmaqdadır.

**Politoloq Elxan Şahinoğlunun sözlərinə görə, keşişlə görüşən müxalifət nümayəndələri Baqrat Qalstanyanı xərcləməyə qərar veriblər**: "Müxalifət liderləri bilirlər ki, əgər onlar Nikol Paşinyanı devirə bilmədilərsə, keşişdə də bu alınmayacaq, sadəcə, indi özləri irəli çıxa bilmədiklərinə görə din xadimini irəli veriblər. Din xadiminin hakimiyyət arzusu Ermənistanı orta əsrlərə sürükləyir. Keşiş katolikosu pis vəziyyətdə qoyacaq. Katolikos sözdə siyasətə qarışmadığını bildirir, ancaq əgər o, nümayəndəsinə baş naziri devirmək üçün xeyir-dua versə, hökumətlə qarşıdurmaya gedəcək. Belə olan halda Nikol Paşinyan kilsənin maliyyəsini azaldacaq".

Göründüyü kimi, sülh düşmənlərinin uduzması qaçılmazdır. Bundan sonra rəsmi İrəvan Bakı ilə sülh danışıqlarını daha gücləmiş bir əllə inkişaf etdirəcəklər. Ötən həftə erməni nazir Mirzoyanın sülh açıqlaması, Kopenhagendə Paşinyanın eyni fikirləri səsləndirməsi, spiker Simonyanın Cenevrədə azərbaycanlı həmkarı Sahibə Qafarova ilə görüşü təsdiq edir ki, ikitərəfli danışıqlar sürətlənir və sülh, insanlıq əleyhinə çıxan kilsə, keçmiş "Qarabağ klanı", separatçılar siyasi meyitə çevrilirlər.

Amma son iki əsrdə Ermənistan və Azərbaycan arasında yaşanmış qarşıdurmalarda separatçı, ekstremist, bir çox hallarda terrorçu təmayüllərə yön verən erməni kilsəsi yenə də özünün məkrli niyyətindən əl çəkmir. Libasları kimi əməlləri də qara olan hay keşişləri Cənubi Qafqazda sülhün bərqərar olmasına, sabitliyin formalaşmasına qarşı çıxır, sülh prosesinə mane olmaqdan ötrü cəmiyyətdə revanşizmi körükləyir, xalqı qisasçılığa çağırırlar. Dinin xoşməramlı, sülhyaradıcı missiyasını arxa plana atan erməni kilsəsinin revanşist mövqeyi, müharibə çağırışları nəinki etiqad azadlığı ilə, ümumən, bəşəri dəyərlərlə də bir araya sığmır.

Bir müddət əvvəl Qriqorian hayların Livanda yerləşən "Böyük Kilikiya Evi"nin katolikosu I Aramın da Azərbaycan əleyhinə qisasçılığa, müharibəyə çağırış xarakterli açıqlamaları məhz bu kontekstdə qiymətləndirilməlidir. I Aram "Dağlıq Qarabağı" Ermənistana birləşdirməyə, bununla da "vahid erməni dövləti" yaratmağa çağırışlar edirdi. Bu gedişata rəy bildirən **siyasi şərhçi Asif Nərimanlı** deyir ki, keşiş Baqrat Qalstyanın rəhbərlik etdiyi Paşinyanın 2018-ci il ssenarisinin təkrarı olan hərəkatda əsas detal kilsənin indiyə qədər arxa planda yön verdiyi Ermənistan siyasətində aktiv oyunçuya çevrilməsidir.

Onun fikrincə, kilsə və Paşinyan arasında qarşıdurma yeni deyil, lakin erməni keşişləri siyasətə açıq müdaxiləyə məcbur edən səbəblər var.

**Onun sözlərinə görə, Paşinyanın "erməni miflərini" dağıtmaq siyasəti kilsənin ideoloji mövcudluğunu da sual altına alır və görünür, keşişlər təsir imkanlarını qorumaq naminə hərəkətə keçməyə qərar verib:** "Ermənistan ictimaiyyəti 44 günlük müharibədən sonra bütün "etiraz planları"na laqeyd münasibət sərgiləyib. Hazırda baş verənlər mövcud müxalifətin simasında hakimiyyətə qarşı müqaviməti genişləndirməyin mümkün olmadığını anlayan kilsənin prosesləri ələ almaq gedişidir. Və prosesin məhz Tavuşdan başlanması, "Vətən üçün Tavuş hərəkatı" adlandırılması da təsadüfi deyil. Rəsmi İrəvan Qarabağla bağlı daxili ittihamlara "məqsəd Ermənistanın qorunmasıdır" tezisi ilə cavab verirdi. Kilsə-müxalifət Qazağın kəndlərinin qaytarılmasını bu tezisin yalan olduğunu isbatlamaq fürsəti olaraq gördülər və belə təqdim edirlər ki, Qarabağdan sonra növbə Ermənistana çatıb, bunun qarşısını almaq üçün Paşinyan getməlidir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Emil SALAMOĞLU

# Deyəsən, keşiş jurnalistlə bacarmadı axı?..

**Əvvəlcə onu deyək ki, belə bir fikir var ki, guya jurnalistlərdən yaxşı siyasətçi alınmır. Amma bunun əksini sübut edən nə qədər misallar var! Elə götürək, dünyanın ən böyük siyasətçilərindən birini - Uinston Çerçilli. Bu adam jurnalistika ilə nəinki özünə siyasi karyera qurub, hətta bir xeyli pul da qazanıb...**



Hüseynbala SƏLİMOV

Qeyd edək ki, bu, siyasət tarixində heç də yeganə hal deyil. Elə İngiltərənin özünün tarixində başqa bir böyük nümunə də var. Məsələn, daha bir böyük siyasətçi - Bencamen Dizraeli də gəncliyində yazıçı və jurnalist karyaerası qurmaq istəyibdir və yazıçı ola bilməsə də çox böyük siyasət adamı olub...

Bütün bunları niyə deyirik? Məlum olduğu kimi, Ermənistanın indiki baş naziri Nikol Paşinyan da jurnalist olub. Əlbəttə, bizim onu Çerçillə, Dizraeli ilə müqayisə etmək fikrimiz yoxdur. Amma öz ölkəsi üçün götürdükdə, Paşinyan elə də xırda siyasi fiqur deyil, ən azı ona görə ki, ondan xeyli əvvəl daha bir erməni siyasətçisi - birinci prezident Levon Ter-Petrosyan da realist siyasət yürütmək istəmişdi, amma məşhur məqaləsini yazandan sonra o, bir həftə belə hakimiyyətdə qala bilmədi!

Amma etiraf edək ki, Paşinyan da Ermənistanın siyasətini və ən əsası da ermənilərin psixologiyasını dəyişmək üçün çox böyük cəhdlər edir. Onu da bir neçə dəfə devirməyə çalışıblar, amma alınmayıb. Hazırda belə cəhdlər təzədən başlayıb və onlara keşiş Baqrat Qalstanyan başçılıq edir.

Keşişin başçılıq etdiyi siyasi etirazlar bir neçə həftədir ki, davam edir. Bəli, revanşist müxalifət, "beşinci kolon" başa düşdü ki, özləri Paşinyanı devirə bilməyəcəklər, ona görə də keşişi irəli verdilər. Səbəbi də budur ki, kilsənin ermənilərin həyatında həmişə böyük rolu olub. Ermənilərin dövlətləri olmadığı dövrlərdə, lap elə olduğu vaxtlarda da onları daha çox erməni kilsəsi idarə edib. Odur ki, Paşinyana qarşı erməni kilsəsini qoydular və indi Nikol bu vaxta qədər heç bir erməni siyasətçisinin edə bilmədiyi bir işi etməlidir - kilsəyə qalib gəlməli və onun təzyiqlərinə rəğmən hakimiyyətdə qalmalıdır.

Elə sıravi ermənilərin də payına indi çox böyük bir missiya düşür - onlar da ilk dəfə olaraq kilsənin buyurduğu kimi yox, özləri bildikləri kimi hərəkət etməlidirlər? Alınacaqmı?

Ən azı biz bu sətirləri yazana qədər keşiş Baqrat istədiyinə nəinki nail ola bilməmişdi, əksinə, onun başçılıq etdiyi etirazlar ciddi şəkildə sönməyə başlamışdı. Əslində bu etirazlar baş tutsaydı onlar hələ ötən həftə geniş vüsət alardı. Ona görə ki, Baqratın sərəncamında ötən həftə şənbə və bazar günləri vardı, insanları ən azı maraq çəkib meydanlara və küçələrə çıxarmalı idi. Amma olmadı.

Üstəgəl, Paşinyan əvvəldən çox arxayın hərəkət edir və etirazları yatırmaq üçün ciddi təzyiq etmirdi. Hətta ötən həftə, etirazların əvvəlində o, arxayın bir şəkildə Danimarkaya - demokratiya sammitinə yollandı. Bəli, ölkə demək olar ki, keşiş Baqratın sərəncamında qalmışdı, amma o, heç nə edə bilmədi. Bundan başqa, Nikol sərhədlərin demarkasiyasından və delimitasiyasından da əl çəkmədi, prosesi davam etdirdi, halbuki bunun da onun üçün ciddi riskləri vardı...

Bir sözlə, hələ ki görünən budur ki, cəmiyyət Paşinyanı müdafiə edir, artıq kilsənin də, xüsusən də revanşist müxalifətin siyasətinə çox böyük şübhə ilə yanaşır, ona görə ki, insanlar tədricən anlamağa başlayıblar ki, on illər ərzində erməni millətçiləri, o cümlədən də erməni kilsəsi onları yanlış yollara yönəldibdir. Bəli, bir neçə gün keçəcək, keşiş Baqratın da başlatdığı "etiraz aksiyaları" ilə bağlı tam yəqinlik yaranacaq. Amma artıq indidən təhlilçilərin böyük qismi bu fikirdədir ki, qatar gedibdir - bəli, deyəsən, keşiş jurnalistlə bacarmadı...

**Ermənistanla Azərbaycan arasında sərhədlərin demarkasiyası ilə bağlı razılaşmalardan sonra revaşistlərin əsas "lideri"nə çevrilən keşiş Baqrat Qalstanyanın baş nazir postuna namizədliyini açıqladığı barədə xəbər vermişdik. Bu barədə müxalif siyasi qüvvələrin nümayəndələri ilə görüşündən sonra Qalstanyan özü məlumat verib.**

# "Onlar delimitasiya prosesinə əngəl törədə bilməyəcək" - politoloq

## Ermənistan katolikosun qərarını gözləyir; ekspert: "Paşinyanın tezliklə hakimiyyətini itirəcəyini ciddi və real saymıram"

Onun sözlərinə görə, o, mayın 26-da katolikos Qaraginlə görüşdən sonra siyasi gələcəyi ilə bağlı yekun qərar verəcək. Onun sözlərinə görə, xalq onun namizədliyini irəli sürməli və namizədliyini təsdiq etməlidir.

"Mən Qalstanyanın siyasi perspektivlərinə çox şübhə ilə yanaşıram. Onun cəmiyyətdə real dəstəyi varmı? 2020-ci ildə müharibədə məğlub olan Paşinyan bir ildən sonra ermənilərdən dəstək alıb və yenidən baş nazir olub. İctimai rəyin hesablamaları göstərir ki, Ermənistan əhalisinin yarıdan çoxu yenə Paşinyanı dəstəkləyir", - politoloq Yuri Svetov deyib.

"Ermənistanda bir çox insanlar Qalstanyanın namizədliyini qəbul edirlər, çünki o, heç bir siyasi qüvvənin nümayəndəsi deyil və hamı ilə işləməyə hazırdır. O, çox xarizmatikdir və etibarlı konsensus fiquruna çevrilib. Qalstanyan Ermənistanın bütün tarixində birləşdirici rol oynamış kilsənin nümayəndəsidir", - "Voskanapat" analitik mərkəzinin rəhbəri, erməni politoloq Hrant Melik-Şahnazaryan isə belə düşünür.

**Məlik-Şahnazaryan vurğulayır ki, Ermənistan cəmiyyəti Paşinyanı öz lideri kimi qəbul etmir:** "Onun hakimiyyəti saxlamaq üçün yeganə şansı bütün etirazları zorla yatırtmaqdır. Amma bu, artıq işləməyəcək, çünki Ermənistanda narazılığın miqyası mümkün olan bütün hədləri aşıb. Artıq əminlik var ki, hər yerdə insanlar kütləvi itaətsizlik aksiyalarına başlayacaqlar, nəticədə Paşinyan hakimiyyətini itirəcək".

Onun sözlərinə görə, hətta hakimiyyətdə olan partiyanın deputatları arasında da mümkün kütləvi iğtişaşlardan böyük narahatlıq var, bunu siyasətçilər arasında internetə sızan yazışmalar sübut edir.

**Qeyd edək ki, Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında sərhədlərin müəyyən edilməsi prosesi haqda da danışıb:** "Biz bu prosesin ilkin müsbət nəticələrini görürük. Bu, ümid verir ki, nəhayət, uzun fasilədən sonra Azərbaycanla Ermənistan arasında sülh sazişi imzalana bilər. Biz İranın bu məsələyə dair dəstəyini alqışlayırıq".

Qareginin qərarı nə olacaq, Baqratın baş nazir olmaq şansı mümkündürmü? Sülh sazişinə olan ümidlər puç ola bilərmi?

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov bu etirazların uğur qazanmayacağını düşünür:** "Azərbaycanla Ermənistan arasında demarkasiya razılaşması və dövlət sərhədlərinin dəqiqləşdirilməsi yönündə aparılan işlər müsbət dəyərləndirilir. Bu prosesin davam etdirilməsinə beynəlxalq dəstək də ifadə edilib. Lakin Ermənistanda ictimai-siyasi vəziyyətin stabil olmaması və yad təsirlər normallaşmanın ahənginə mənfi təsir göstərir. Baş nazir Paşinyandan narazılar, revanşistlər, ayrı-ayrı cinayətkar ünsürlər, həmçinin erməni diasporu hər vəchlə çalışır ki, Ermənistanla Azərbaycan arasında razılaşmalar pozulsun, sülh danışıqları iflasa uğrasın. Narazıları keçmiş cinayətkar siyasi liderlər Köçəryan, Sərkisyan, Ohanyan kimilər ətrafına toplaya bilmədi, onları öz tərəflərinə çəkə bilmədi. Çünki həmin şəxslər korrupsioner, rüşvətxor və adları bir çox qalmaqallarda hallandırılan, reputasiyaları ciddi şəkildə zədələnmiş şəxslər kimi tanınırlar. Bu boşluqdan erməni kilsəsi bəhrələnərək, etirazlara rəhbərliyi öz üzərinə götürdü və Tavuşun arxiyepiskopu Baqrat Qalstanyanı qabağa verdi. Onun yaratdığı "Tavuş uğrunda Vətən" hərəkatı özünü ictimai müqavimət hərəkatı adlandırsa da çox keçmədi ki, Erməni Qriqoryan Apastol Kilsənin əsl siması üzə çıxdı və hakimiyyət uğrunda mübarizəyə qoşulduğu aydın oldu. Kilsənin erməni cəmiyyətinə və siyasətinə təsiri inkaredilməzdir. O da məlumdur ki, erməni kilsəsi və din xadimlərinin həmişə xarici dövlətlərin, xüsusən də Rusiyanın xüsusi xidmət orqanları ilə sıx əlaqələri olub. Qalstanyanın qabağa verilməsi də məhz regionda sülhə və təhlükəsizliyə nail olunmasına maraq göstərməyən qüvvələrin planlarının tərkib hissəsidir. Lakin proseslərin gedişi və kilsənin rəhbərlik etdiyi etirazların kütləviliyinin alınmaması həmin planları pozmaqdadır. Doğrudur, Paşinyan hakimiyyəti zəifdir və davamlı basqılar altındadır. Ancaq müxalifət də, onun tərəfdarları da daha zəif olduğundan hakimiyyət dəyişikliyi baş verəcəyi ehtimalı çox aşağıdır. Arxiyepiskop Qalstanyan özü də ciddi siyasi və xarizmatik fiqur deyil. Parlamentdə müxalif fraksiyaların rəhbərləri və digər hakimiyyətə əks qüvvələrlə görüşməsinə baxmayaraq yetərli dəstəyi ala bilməyib. Eyni zamanda o, Ermənistan vətəndaşı olmadığından baş nazir kürsüsünə gəlməsinə qanunvericilik də imkan vermir. Nəzəri cəhətdən Katalikos Qareginin dəstəyini almaq xalqın dəstəyini almaq anlamı vermir. Erməni xalqının əksəriyyəti müharibənin yenidən başlamasını, yeni və daha ağır faciələrlə üzləşməsini istəmir. Erməni cəmiyyətinin anlaqlı kəsimi başa düşür ki, revanşistlərin yolu Ermənistanı fəlakətə aparan yoldur və hazırkı baş nazir Paşinyanın tərəddüdü də olsa yürütdüyü siyasət daha pozitivdir.



Qalstyanyanın özünün siyasi perspektivini də uğurlu görmürəm, müəyyən müddətdən sonra onun rəhbərlik etdiyi etirazlar da səngiyəcək. Bunu keçirilən aksiyaların tədricən zəifləməsi və kütləviliyin alınmaması göstərir. Bu gün Ermənistanda hakimiyyət dəyişikliyi və radikal, revanşist qüvvələrin Paşinyanı əvəzləməsi regional, həmçinin də Cənubi Qafqaza maraqları olan supergüclərə də sərf etmir. Bu gün əsas mübarizə Gürcüstan uğrundadır. Qərbin və Rusiyanın diqqəti də Gürcüstanda sonun necə olacağına yönəlib. Odur ki, bəzi ermənin ekspertlərin Qalstanyandan fövqəladə nələrsə gözləməsini və Paşinyanın tezliklə hakimiyyətini itirəcəyini ciddi və real saymıram. Azərbaycanın Ermənistan və erməni cəmiyyətinə təsirini də nəzərə almaq lazımdır. Mən hətta mübaliğəsiz deyərdim ki, Bakıdan əsən rüzgar Ermənistanda bir anda böyük fırtınalar yarada bilir. Bu baxımdan da Paşinyan hakimiyyətinin süqutu Bakının da maraqlarında deyil. İran-Azərbaycan sərhədində hər iki prezident İlham Əliyev və mərhum İbrahim Rəisinin görüşündə verdikləri birgə bəyanatlardan da bir daha aydın oldu ki, Azərbaycan-Ermənistan arasında sərhədlərin müəyyən edilməsi prosesindən rəsmi Bakı məmnundur və bu, iki ölkə arasında sülh sazişinin tezliklə imzalanacağına ümid verir. Əvvəllər Bakı ilə İrəvan arasında normallaşma prosesinə, demarkasiya işlərinə, o cümlədən Zəngəzur dəhlizinin açılmasına Tehran destruktiv mövqe sərgiləyirdisə, son dönəmlər bunun bununla bağlı yumşalmaların olması diqqətçəkicidir. Hətta 3+3 formatında problemlərin, mübahisələrin həllini daha məqbul saydı. Yekun olaraq demək istərdim ki, Ermənistanda yaradılan bütün manevələrə, süni etirazlara baxmayaraq nə Qalstanyanın baş nazir postunda Paşinyanı əvəzləyəcəyini, nə də delimitasiya işlərinə əngəl törədiləcəyini mümkün hesab etmirəm. Normallaşma və sülh prosesi gecikə, ləngiyə bilər, amma bu prosesi mütləq başa çatdırmaq lazımdı".

**Siyasi analitik Asif Nərimanlı Ermənistanda baş verənlərin Azərbaycan üçün də əhəmiyyətli olduğunu söylədi:** "Ermənistanda Baqratın rəhbərlik etdiyi hərəkatın baş nazirliyə namizəd seçmək problemi var. Bir çoxları Baqratın özünün namizədliyini irəli sürsə də, burada problemlər mövcuddur. Birincisi, kilsə buna icazə verməlidir, Baqratın Qareginlə görüşündə bu məsələ müzakirə olunacaq. Lakin kilsənin öz nümayəndəsini baş nazirliyə namizəd kimi irəli sürəcəyi ehtimalı azdır. Kilsə bu hərəkatda birbaşa iştirak etsə də, siyasətə birbaşa müdaxilə etmək istəmir. Böyük ehtimalla Qareginlə Baqrat "uyğun namizədin" tapılması üzərində danışacaqlar. İkincisi, Ermənistanda hakimiyyətə alternativ lider üzərində geosiyasi konsensus olmalıdır. Onlar uğur qazanmaq üçün həm Rusiyada, həm də Qərbdə qəbul ediləcək namizəd seçməlidirlər, əks təqdirdə, nəticə əldə etmək imkanları bir az da məhdudlaşacaq. Bu halda kimin namizəd olması ciddi problemə çevrilib. Müxalifət əsasən Köçəryan və Sərkisyanın çətiri altındadır. Bu iki şəxsdən, yaxud onlara yaxın şəxslərdən kim namizəd olarsa, erməni ictimai rəyində dəstəklənməyəcək. O cümlədən bu qüvvələrin namizədi daha çox rusiyameylli şəxs kimi görünəcək ki, bu da Qərbdə hərəkata mümkün dəstək gözləntisini azaldır. Ermənistan müxalifəti bütün geosiyasi tərəflərin qəbul etdiyi, həm də erməni ictimai rəyinin qəbul etdiyi yeni sima tapmalıdır. Lakin belə bir şəxsin tapılması çətindir. Bu baxımdan, hərəkatın hakimiyyət dəyişikliyinə səbəb olacağı ehtimalı zəifdir. Ermənistanda baş verənlər Azərbaycan üçün də əhəmiyyətlidir, xüsusilə sülh sazişinin aktual olduğu vaxtdır. Hakimiyyət dəyişikliyi olarsa, bütün hallarda prosesə mənfi təsir göstərəcək, ən azı nəticə əldə etmək üçün daha çox zamana ehtiyac olacaq".

**Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Ədliyyə Nazirliyinin bəzi səlahiyyətləri Məhkəmə-Hüquq Şurasına verildi

**Ədliyyə Nazirliyinin məhkəmələrin işinin təşkili sahəsində həyata keçirdiyi bəzi səlahiyyətlər Məhkəmə-Hüquq Şurasına həvalə edilib.**

APA-nın xəbərinə görə, bu, Prezident İlham Əliyevin tətbiqi barədə fərman imzaladığı "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanunda əksini tapıb.

Qanuna əsasən, məhkəmə statistikasının aparılması, məhkəmələrdə kargüzarlığın təşkil edilməsi, hakimlərin əmək və sosial hüquqlarının təmin edilməsi, məhkəmələrdə icra və əmək intizamına riayət edilməsi üçün tədbirlər görmək, birinci və apelyasiya instansiyası məhkəmələrində bu sahələr üzrə işin təşkili vəziyyətini yoxlamaq, həmçinin birinci instansiya məhkəmələrində sədr və sədr müavini vəzifələri vakant olduqda onların vəzifələrinin icrasını müvəqqəti olaraq həmin məhkəmənin hakimlərindən birinə həvalə etmək, birinci instansiya məhkəmələrinin hakimlərini onların razılığı ilə digər məhkəməyə ezam etmək, onlara məzuniyyət vermək, həmin məhkəmələrin aparatlarının strukturunu və ştat cədvəlini təsdiq etməklə bağlı hüquqlar Məhkəmə-Hüquq Şurasına aid edilir.

Digər dəyişikliklərə əsasən, müvafiq icra hakimiyyəti orqanının hakimlər barəsində intizam icraatının başlanılması barədə müraciət etməsi imkanı və hakimlərin həmin orqana ezam edilməsi qanundan çıxarılır. Hakimlərin öz razılığı ilə Məhkəmə-Hüquq Şurasının Aparatına ezam müddəti isə 1 ilədək müddətə azaldılır. Bundan başqa, layihədə Məhkəmə-Hüquq Şurasının hər hansı müraciət olmadan qanunla müəyyən edilmiş hallarda bütün instansiya məhkəmələrinin hakimləri barəsində intizam icraatı başlamaq vəzifəsi qeyd olunur.

Dəyişikliklər 2024-cü il iyunun 1-dən qüvvəyə minəcək.

YENİ MÜSAVAT
N 87 (8460) 21 may 2024

# Məktəblərdə iki günlük monitorinqlərlə bağlı ciddi narazılıq

**Kamran Əsədov:** "IV-VI siniflərdə təhsil alan uşaqların imtahanlara cəlb edilməsi bir sıra beynəlxalq tədqiqatlarda uyğun hesab edilmir, amma..."
**Elşən Qafarov:** "IV sinif uşaqlarının monitorinqə cəlb olunması doğru deyil"

**Mayın 18 və 19-da ölkə üzrə ümumi təhsil müəssisələrinin IV-VI siniflərində keçirilən monitorinq prosesi yekunlaşıb. Monitorinqlərdə 300 min nəfərə yaxın şagird iştirak edib. IV siniflərində təhsil alan şagirdlərin 98 faizindən çoxu monitorinqdə iştirak edib.**

Paytaxt üzrə monitorinq üçün ayrılan 91 imtahan mərkəzində Azərbaycan və rus bölməsi olmaqla, 50 minə yaxın VI sinif şagirdi biliyini sınayıb. Təhsilalanlara tədris dili fənni üzrə 25 qapalı sual, təbiət fənni üzrə 25 qapalı, riyaziyyat fənni üzrə isə 20 qapalı və 5 açıq sual təqdim olunub. Sualların cavablandırılması üçün 150 dəqiqə vaxt verilib. Monitorinqdə şagirdlərə təqdim olunan tapşırıqlar tədris dilindən oxu və dil qaydaları məzmun xətlərini, riyaziyyat fənnindən ədədlər və əməllər, cəbr və funksiyalar, həndəsə, statistika və ehtimal məzmun xətlərini, təbiət fənnindən insan orqanizmi və sağlamlıq, canlıların müxtəlifliyi, maddələr və onların xassələri, enerji, qüvvə və hərəkət, ətraf mühit və biz məzmun xətlərini əhatə edib.

Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Orxan Abbasov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Xəyalə Əhmədzadə və digər struktur bölmə rəhbərləri monitorinq prosesini izləyiblər.

Monitorinqin keçirilməsində məqsəd şagird nailiyyətlərinin yaxşılaşdırılması, məktəblilərdə müvafiq standartlar üzrə bilik və bacarıqların hansı səviyyədə formalaşdığının müəyyən edilməsi və tədrisin keyfiyyətinin artırılması istiqamətində tədbirlərin görülməsindən ibarətdir.

Monitorinqin nəticəsi şagirdlərin summativ qiymətləndirmə ballarına, eləcə də onların sinifdən-sinfə keçmələrinə təsir göstərmir. Qeyd edək ki, monitorinqlərlə bağlı ən ciddi narazılıq şagirdlərin təhsil aldığı məktəbdə deyil, digər təhsil müəssisələrində keçirilməsidir. Valideynlər bir çox bu səbəbdən övladlarında əlavə stress yarandığından şikayət ediblər. Üstəlik, bu, valideynlərə də əlavə problem yaradıb, övladlarını özləri monitorinq keçirilən məktəblərə aparmalı olublar.

Mövzu ilə bağlı **təhsil eksperti Kamran Əsədov** "Yeni Müsavat"a danışıb:



"Elm və Təhsil Nazirliyinin yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin IV-VI siniflər üçün keçirdiyi monitorinq imtahanları olduqca vacib məsələləri həll edə bilir. Doğrudur, IV-VI siniflərdə təhsil alan uşaqların imtahanlara cəlb edilməsi bir sıra beynəlxalq tədqiqatlarda uyğun hesab edilmir və dünyanın inkişaf etmiş təhsilinə malik ölkələrdə şagirdlər VII sinfə qədər heç hansı imtahana cəlb olunmurlar. Lakin həmin ölkələrdə orta ümumtəhsil məktəblərinin keyfiyyəti, ali təhsil müəssisələrinin əmək bazarına uyğunluğu tamamilə fərqlidir. Biz monitorinq imtahanları keçirməyə məcburuq. Çünki orta ümumtəhsil məktəblərində təhsilin keyfiyyəti mütləq nəzarətdə olmalıdır.

Təbii ki, məhz pedaqoji tədqiqatlarda ona görə imtahanların keçirilməsi məqbul hesab edilmir ki, uşaqlar psixoloji gərginlik, stress keçirirlər. Hətta Azərbaycanda bir çox valideynlər imtahan nəticələrinə görə övladlarına təzyiq göstərirlər və biz bunu dəfələrlə müşahidə edirik".

**Kamran Əsədov qeyd edib ki, monitorinq imtahanları vacibdir:** "Buna qədər məktəblərdə şagirdlər KSQ, BSQ kimi qiymətləndirməyə cəlb olunurlar. Əlbəttə, bu imtahanların özü də şagirdlərdə əlavə stress və gərginlik yaradır. Lakin monitorinq şagirdlərin səviyyəsini müəyyənləşdirmək üçün vacib alətdir. Düşünürəm ki, bu tipli imtahanlar mütəmadi olaraq keçirilməlidir və təkcə bir neçə fənn deyil, bir çox daha əlavə fənlər də bu prosesə cəlb olunmalıdır. Çünki məhz monitorinqlərin keçirilməsi ilə bağlı xəbərlər ortaya çıxandan sonra məktəblərdə həmin fənlərin tədrisi ilə bağlı ciddi keyfiyyət istiqamətində addımlar atılmağa başladı. Müəllimlər bilavasitə həmin fənlərə daha çox diqqət ayırdılar.

**Kamran Əsədov qeyd edib ki, monitorinq imtahanı nəticəsində məktəb güclü və inkişafa ehtiyacı olan tərəflərini müəyyənləşdirir**: Şagirdlərə fənni tədris edən müəllimlərin öyrətmə və öyrənmə prosesini nə dərəcədə effektiv təşkil etdiklərini anlamağa yardım edir.

Vahid və mərkəzləşdirilmiş belə imtahan müəllimləri öyrənmə və öyrətmənin dinamikasına nəzarət edə bilmələri üçün məlumat bazası (data) ilə təmin edir. Çünki tədris ilində şagirdlər müxtəlif kursların sınaq imtahanında iştirak edir, lakin müəllim o data-nı əldə edə bilmir, müqayisə edə bilmir.

Monitorinq zamanı əldə olunan nəticələr şagird nailiyyətlərini yaxşılaşdırmaq üçün məktəbin nəyə ehtiyacı olduğunu anlamağa yardım edir, məktəbin hədəflərini müəyyənləşdirməyə və fəaliyyətini səmərəli planlaşdırmağa yardım edir. Nəticələri düzgün təhlil edən direktor bu imkandan istifadə edərək məktəbin inkişaf planı vasitəsilə tədrisin inkişafını təmin edə bilər.

Düzdür, bu gün müəyyən fənlərdən monitorinq imtahanları aparıldı.

Qüvvədə olan qanunvericiliyə görə, monitorinq imtahanı şagirdlərin taleyinə təsir göstərməyəcək. Yəni bu imtahanda şagirdin aşağı və ya yuxarı nəticə göstərməsi onun yarımillik, illik qiymətlərinə təsir göstərmir.

Builki imtahanlar elmi-metodiki məqsədlərə söykənir və tədris olunan dərsliklərin və tədrisin keyfiyyətinin yoxlanmasına, ölçülməsinə yönəldilib.

Doğrudur, valideynlər şənbə və bazar günlərini imtahanlara ayırıblar. Amma bu, imtahandır və imtahan həm də müəllimləri yoxlamaq imkanı verəcək. Yəni valideynlər biləcək ki, övladlarına yazılan qiymətlər nə qədər reallığı əks etdirir".

**Təhsil eksperti Elşən Qafarov isə qeyd edib:** "Monitorinqlərin aparılması təhsilə nəzarət sistemində təhsilin keyfiyyətinin ölçülməsində ciddi və müsbət addımdır və idarəetmədə informasiyanın toplanması üçün lazımi addımdır.

Lakin məsələnin problemli tərəfi ondan ibarətdir ki, burada IV sinif uşaqlarının monitorinqə cəlb olunması doğru deyil. Yaş xüsusiyyətlərini nəzərə alaraq, onların bu qədər gərginliyə cəlb olunması doğru deyil.

Məsələ burasındadır ki, monitorinqin nəticələri məktəblərin nəticələri kimi hesablandığına görə məktəb direktorları, onların müavinləri, ibtidai sinif müəllimləri məktəblərdə monitorinqlər zamanı çox həyəcanlı mühit yaradırlar. Bu uşaqların aldığı travmaların cavabını kim verəcək.

Arzuolunandır ki, monitorinqlərr V-XI siniflərdə aparılsın. İbtidai siniflərdə monitorinqlərin bu şəkildə aparılmasını doğru hesab etmirik. Beynəlxalq təcrübəyə baxanda görürük ki, hətta 12 yaşa qədər uşaqları nəinki monitorinq, hətta qiymətləndirməyə cəlb etmirlər. Amma biz 9-10 yaşlı uşaqları monitorinqə cəlb edirik".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**




# Lisey və gimnaziyalara qeydiyyat başlayıb

**2024-2025-ci tədris ili üzrə Bakı şəhəri və ölkənin müxtəlif bölgələrində yerləşən bir sıra lisey və gimnaziyalara şagird qəbulu mərkəzləşdirilmiş imtahanla həyata keçirilir.**

Bu barədə APA-ya Elm və Təhsil Nazirliyindən xəbər verilib.

Ərizə qəbulu 20 may - 13 iyun tarixlərini əhatə edəcək.

Valideyn (və ya qanuni nümayəndə) şəxsi kabinetində "Sorğu yerləşdir" bölməsinə daxil olaraq "Mərkəzi imtahanla qəbul" düyməsini sıxmaqla imtahanın keçiriləcəyi mərkəzi seçməlidir.

İmtahan zamanı şagirdlərə tədris dili və riyazi təfəkkürü ölçən standart və qeyri-standart suallar təqdim olunacaq. Şagirdlər imtahanda topladıqları bala müvafiq olaraq təhsil almaq istədikləri lisey və ya gimnaziyaların seçimini aparmalıdırlar.

Qeyd edək ki, lisey və gimnaziyalara qəbul imtahanı aşağıdakı tarixlərdə keçiriləcək:

21 iyun - 7 və 8-ci siniflərə qəbul;

22 iyun - 6-cı siniflərə qəbul;

23 iyun - 5-ci siniflərə qəbul.

Mərkəzləşdirilmiş qaydada qəbul prosesi həyata keçiriləcək lisey və gimnaziyaların siyahısı, eləcə də ətraflı məlumat üçün linkə daxil ola bilərsiniz: https://bit.ly/3yugIS7 ttps://bit.ly/3yugİS7



## Elektrik şəbəkələrinin mühafizə zonalarında iş aparılmasına dair tələblər müəyyənləşib

**Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələblər müəyyənləşib.**

APA-nın xəbərinə görə, Nazirlər Kabineti bu barədə qərar verib.

Qərarla elektrik şəbəkələrinin mühafizəsinin təmin olunması, istismarı üçün normal şəraitin yaradılması və zədələnməsinin qarşısının alınması, həmçinin insanların həyat və sağlamlığının, təhlükəsizliyinin təmin edilməsi məqsədilə elektrik şəbəkələri ətrafında mühafizə zonalarının (torpaq sahələri, su və hava məkanı) ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələblər müəyyən edilib.




## Mərkəzi Bank yenilənmiş 1 qəpiklik metal pul nişanlarını tədavülə buraxıb

**Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən yenilənmiş 1 qəpiklik metal pul nişanları tədavülə buraxılıb.**

"APA-Economics" Mərkəzi Banka istinadən xəbər verir ki, tədavülə buraxılan yenilənmiş 1 qəpiklik metal pul nişanının arxa tərəfində yeni dizayn elementləri kimi Azərbaycan Respublikasının Dövlət gerbi, eləcə də pul nişanının istehsal ili əks olunub.

Yenilənmiş 1 qəpiklik metal pul nişanının digər dizayn elementləri və texniki parametrləri hazırda tədavüldə olan eyni nominallı metal pul nişanına müvafiq olaraq dəyişməz saxlanılıb.

Yenilənmiş 1 qəpiklik metal pul nişanı hazırda tədavüldə olan eyni nominallı pul nişanları ilə paralel olaraq dövriyyədə olacaq.




## "Çudo Peçka"nın dövlətə 157 min manat vergi borcu var

**"Çudo Peçka" MMC-nin İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə (DVX) 156 955.85 manat borcu var.**

"APA-Economics" bu barədə DVX-nin rəsmi internet saytına istinadən xəbər verir.

Qeyd edək ki, "Çudo Peçka" MMC Çingiz Cəlilov tərəfindən yaradılıb, 18 yanvar 2002-ci il tarixində dövlət qeydiyyatına alınıb. 2017-ci ilin mart ayında şirkətə məxsus "Çudo Peçka" mağazalar şəbəkəsi fəaliyyətini tamamilə dayandırıb. Şirkətin hazırkı qanuni təmsilçisi Fuad Məmmədov, nizamnamə kapitalı isə 10 manatdır.

# Cavanşir körpüsünün söküntüsü başladı - işlər 4-5 aya tamamlanacaq

**Bakının Xətai rayonunda yerləşən Cavanşir körpüsü sökülür.**

APA xəbər verir ki, artıq söküntüyə başlanıb.

Bununla əlaqədar olaraq saat 17:00-dan etibarən Cavanşir körpüsü üzərində nəqliyyatın hərəkəti məhdudlaşdırılıb, istiqamət dəyişdirilib.




Həyata keçirilən kompleks işlər çərçivəsində nəqliyyat vasitələrinin Yusif Səfərov küçəsindən mərkəz istiqamətində hərəkəti 28 May küçəsindən olacaq.

Afiyəddin Cəlilov küçəsindən mərkəzə hərəkət edəcək nəqliyyat vasitələri Fəzail Bayramov küçəsinə yönləndirilməklə, hərəkətlərini Sabit Orucov, Nizami küçələri istiqamətində davam etdirə biləcəklər. Bu məqsədlə F.Bayramov küçəsində mövcud ikitərəfli hərəkət ləğv ediləcək S.Orucov küçəsi istiqamətində birtərəfli hərəkət təşkil ediləcək. F.Bayramov və S.Orucov küçələrinin kəsişməsi işıqfor vasitəsilə nizamlanacaq.

S.Orucov və Nizami küçələrində isə öz növbəsində hazırkı hərəkətə əks istiqamətdə birtərəfli hərəkət təşkil olunacaq. Nizami küçəsi vasitəsilə mərkəzə doğru hərəkət edəcək nəqliyyat vasitələri Kövkəb Səfərəliyeva və Puşkin küçələri vasitəsilə Üzeyir Hacıbəyli küçəsinə çıxa biləcəklər.

K.Səfərəliyeva küçəsinin Əlâddin Quliyev küçəsindən Ü.Hacıbəyli küçəsinədək olan hissəsində, eləcə də Puşkin küçəsinin 28 May küçəsi ilə Ü.Hacıbəyli küçəsi arasındakı hissəsində Neftçilər prospekti istiqamətində hərəkət birtərəfli olacaq. Bununla yanaşı, K.Səfərəliyeva küçəsindən Ü.Hacıbəyli küçəsinin şərqində (Cavanşir körpüsü tərəf) mövcud istiqamət saxlanılaraq, əks istiqamətə də avtomobillərin hərəkətinə icazə veriləcək.

28 May küçəsində əlavə nəqliyyat ləngimələrinin qarşısını almaq məqsədilə Mehdi Mehdizadə küçəsindən 28 May küçəsinə birbaşa çıxış məhdudlaşdırılacaq. Sürücülərin Y.Səfərov küçəsində yerləşən geriyə dönmə yerindən istifadə etməsi tövsiyə olunur.

Cavanşir körpüsünün söküntüsü əraziyə cəlb edilən xüsusi texnikalarla həyata keçirilir.

Bunu Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) mətbuat katibi Anar Nəcəfli deyib.

Onun sözlərinə görə, söküntü işləri və layihənin icrasının 4-5 ay ərzində tamamlanması nəzərdə tutulur.

# Qarabağ Regional Enerji Təchizatı və Satışı İdarəsi yaradılacaq

**Nazirlər Kabineti "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin strukturu"da dəyişiklik edib.**

APA-nın xəbərinə görə, dəyişiklik "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin tabeliyində olan hüquqi şəxs statusuna malik olmayan təşkilatlarla (idarələr) əlaqədardır.




Bakı Regional Enerji Təchizatı və Satışı İdarəsi (Bakı) - Bakı şəhərinin enerji təchizatı və satışı idarələri, Xırdalan Enerji Təchizatı və Satışı İdarəsi və Qobustan Rayon Elektrik Şəbəkəsi əsasında Bakı Regional Enerji Təchizatı və Satışı İdarəsi (Bakı) Bakı şəhərinin enerji təchizatı və satışı idarələri və Abşeron Rayon Enerji Təchizatı və Satışı İdarəsi, Şimal Regional Enerji Təchizatı və Satışı İdarəsi (Sumqayıt) - Sumqayıt, Siyəzən, Şabran, Xızı, Xaçmaz, Quba və Qusar rayon elektrik şəbəkələri əsasında Sumqayıt Regional Enerji Təchizatı və Satışı İdarəsi (Sumqayıt) - Sumqayıt, Xızı, Qobustan rayon elektrik şəbəkələri və Bağlar elektrik şəbəkəsi, Aran Regional Enerji Təchizatı və Satışı İdarəsi (İmişli) - İmişli, Beyləqan, Füzuli, Ağcabədi, Ağdam, Zərdab və Kürdəmir rayon elektrik şəbəkələri əsasında Aran Regional Enerji Təchizatı və Satışı İdarəsi (İmişli) -İmişli, Beyləqan, Ağcabədi, Ağdam, Ağsu, Kürdəmir, Zərdab və Füzuli rayon elektrik şəbəkələri, Mərkəzi Aran Regional Enerji Təchizatı və Satışı İdarəsi (Mingəçevir) - Mingəçevir, Goranboy, Naftalan, Tərtər, Bərdə, Yevlax, Ağdaş, Ucar, Göyçay və Ağsu rayon elektrik şəbəkələri əsasında Mərkəzi-Aran Regional Enerji Təchizatı və Satışı İdarəsi (Mingəçevir) - Mingəçevir, Goranboy, Naftalan, Yevlax, Ağdaş, Ucar, Göyçay, Tərtər və Bərdə rayon elektrik şəbəkələri yaradılacaq.

Eyni zamanda Qarabağ Regional Enerji Təchizatı və Satışı İdarəsi (Şuşa) - Şuşa, Xocavənd, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Cəbrayıl rayon və Xankəndi elektrik şəbəkəsi və Xaçmaz Regional Enerji Təchizatı və Satışı İdarəsi (Xaçmaz) - Xaçmaz, Şabran, Quba, Qusar və Siyəzən rayon elektrik şəbəkələri yaradılacaq.

**Elan:**

**Azərbaycan Universitetinin tələbəsi Həsənov Həsənalı Hikmət oğlunun adına olan tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 87 (8460) 21 may 2024

# Kürqırağı bölgələrə ciddi təhlükə

**Son günlər intensiv yağan yağış Kür çayında suluğun artmasına səbəb olub. Azərbaycanın Salyan rayonunda aprelin ortalarında Kür çayında suyun səviyyəsi 1,5 metrə qədər yüksəlib, bu da davamlı yağışlı hava şəraiti ilə izah olunur. Bu tendensiya davam edib və aprelin ortalarından mayın ortalarına qədər dağlıq rayonlarda güclü yağışlar və hətta qar yağışı müşahidə olunub. Nəticədə yaxın aylarda Kür çayında su səviyyəsinin daha da artacağı gözlənilir.**

## Ekspertlər hesab edir ki, bu il daşqınlar çox olacaq; “Ermənistan və Gürcüstan transsərhəd çaylarının suyunun idarə edilməsi ilə bağlı bizimlə saziş imzalamayıb, buna görə...”

Çayın Qazax rayonu ərazisindən keçən hissəsində Kür artıq son 10 gündə ikinci dəfə öz məcrasından çıxaraq ətrafa yayılıb. Bunun nəticəsində əkin sahələri və təsərrüfatlara ziyan dəyib. Sel əsasən rayonun Aşağı Salahlı və Orta Salahlı kəndlərinin əkin torpaqlarında fəsadlar törədib. Təbii fəlakət nəticəsində indiyə kimi Qazax rayonunun Aşağı Salahlı kəndinin sakinlərinə məxsus 230 hektara yaxın torpaq sahəsi su altında qalıb. Kənd sakinlərinin çay kənarında yerləşən təsərrüfatlarını - taxıl, yonca, qarğıdalı sahələrini sel suları yuyub.

Aşağı Salahlıda 150 hektar taxıl, 6 hektar qarğıdalı, 80 hektar örüş yeri suyun altında qalıb. Digər sakinlər Ayna.az-a deyiblər ki, bənd vurulmazsa, kəndin pay torpaqlarında artıq heç nə becərmək mümkün olmayacaq.

Hələ də bölgədə yağıntılı hava şəraiti hökm sürdüyündən Kür çayında sel təhlükəsi azalmayıb. Əksinə, suyun ətraf sahələrə doğru daha da genişlənməsi riski var.

Yağışlar Xəzər dənizində isə suyun səviyyəsinin nəzərəçarpacaq dərəcədə artmasına gətirib çıxarıb. Qazaxıstanda - Aktauda hər gün dəniz səviyyəsini ölçən yerli sakin 10-15 santimetrlik artım olduğunu bildirib. Bəzi skeptiklər bu artımın güclü küləklərlə əlaqədar baş verən müvəqqəti effekt olduğunu iddia etdikləri halda, ekspertlər daha ciddi tendensiya görürlər. Qazaxıstanlı alim Nurlan Munbayev iddia edir ki, Rusiyadan ciddi su axını Xəzər dənizinin səviyyəsinin artmasına səbəb ola bilər. “Ural çayının səviyyəsi 9-11 metr yüksəlsə, bu, Xəzər dənizinin səviyyəsinin artmasına gətirib çıxara bilər, belə ki, Ural onun şimal hissəsinə, Atırau körfəzinə tökülür. Xəzər dənizinin səth sahəsinin böyük olduğunu nəzərə alaraq, bu əlavə su həcmi dəniz səviyyəsinin 2-3 metr yüksəlməsinə gətirib çıxara bilər”, - deyə Munbayev bildirib. (“Turan”)

Bu yaxınlarda yağan yağışlar və çay axınlarının sonrakı artımı uzun illərdir davam edən narahatedici azalmadan sonra müsbət dönüş nöqtəsi ola və Xəzər regionunda ümidləri bərpa edə bilər.

**Ekoloq Rövşən Abbasov mövzu ilə bağlı “Yeni Müsavat”a dedi ki, bu il Kür çayında daşqınların olacağı şübhə doğurmamalıdır:** “Çünki bu il bol sulu ildir. Son on ili çıxsaq, əvvəlki illərdə Kür çayında həmişə periodik daşqınlar olub. Bu il də bu daşqınların baş verməsi mümkündür. Bunun üçün də Kürün aşağı axınında bütün strukturlar hazır vəziyyətə gətirilməlidir. Bəndlərin səviyyəsi yoxlanılmalıdır. Lazım olduqda bəndlər möhkəmləndirilməlidir. Çox güman ki, Zərdab, Saatlı, Sabirabad, Salyan, Neftçala rayonlarında daşqınlar müşahidə ediləcək”.

**“Yeni Müsavat”a danışan ekoloq, professor Çingiz İsmayılov qeyd edir ki, Kürün həcminin artması, azalması yalnız Azərbaycanda deyil, bütövlükdə regionda gedən təbii proseslərlə bağlıdır:** “Yağıntıların artması Kürdə suyun artıb-azalmasına bilavasitə təsir edir. Bu, bir tərəfdən qlobal iqlim dəyişikliyi ilə bağlıdır. Digər tərəfdən, Kür çayının - onun qolları vasitəsilə və keçdiyi ərazilərdə (Türkiyə, Gürcüstan, Ermənistan) nə dərəcədə intensiv istifadə olunması, artması-azalması kimi hallar onun Azərbaycan ərazisindən keçəndə həcminin dəyişilməsinə təsir edir. Əfsuslar olsun ki, Ermənistan və Gürcüstan hələ ki transsərhəd çayların suyunun istifadəsində idarəedilmə ilə bağlı bizimlə saziş imzalamayıb. Onun üçün bir tərəfdən istədikləri həcmdə su götürürlər. Digər tərəfdən, çirklənməyə də nəzarət olunmur. Bu səbəbdən biz bunu tənzimləyə bilmirik. Artıq bizim ərazimizə gələndən sonra onlar bir neçə su anbarında toplanır və onun sərfinin necə istifadə olunmasından asılı olmayaraq onların səviyyəsi dəyişir. Bu, suyun sonradan kanallar vasitəsilə suvarmada istifadəsinin həcminə də təsir edir. Bizdən asılı olan odur ki, su ehtiyatlarını səmərəli istifadə etməliyik. Xüsusən suvarmada. O zaman qıtlıq da bu formada yaranmayacaq. Suyun sərfi ilə bağlı maarifləndirmənin aparılması çox vacibdir. Müasir texnologiyaların tətbiqi ilə artıq bir çox ölkələrdə dronla suvarma aparırlar. Arx sistemi ilə kanallarla suyu tarlaya buraxmaq keçmişdə qalmalıdır. Suyun həcminin dəyişilməsindən asılı olmayaraq biz suya qənaətlə yanaşsaq, belə problemlər yaranmaz".




Qeyd edək ki, Qafqaz regionunda ən böyük su hövzəsi olan Kür çayı ölkəmizin əsas su mənbəyidir. Min illərdir Kür çayı ətrafında məskunlaşmış əhali çayın suyundan həm təsərrüfat sahələrinin suvarılması, həm də içməli su kimi istifadə edir. Amma təəssüf ki, bu nemət hesab etdiyimiz suyun qədrini bilməyən bəzi insanlar çayın sahillərinə məişət tullantıları atmaqla onu daha da çirkləndirir, infeksion xəstəliklərinin yayılması üçün münbit şərait yaradırlar. Su mənbələrinin çirklənməsi suyu əhalinin içməsi və təsərrüfat işlərində istifadəsi üçün yararsız etməklə bərabər, həmin hövzələrdəki biomühitə də olduqca mənfi təsir göstərir.

Azərbaycanda su ehtiyatlarının 70 faizi Araz və Kür çaylarının hesabına ödənilir. Hazırda Kür çayı onun keçdiyi həm qonşu ölkələrin, həm də ölkə ərazisində sənaye və məişət tullantıları ilə çirklənməyə məruz qalır. Ölkəmizdə də əhali tərəfindən yaşayış məntəqələrində formalaşan məişət tullantılarının düzgün idarə olunmaması çayın sahil mühafizə zonasını çirkləndirir. Bu, bilavasitə çayın əlavə çirklənməsinə və suyun keyfiyyətinə mənfi təsir göstərən amil hesab olunur.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**



## Məişət zorakılığına görə 88 qadın, 1298 kişi cəzalandırılıb

**2023-cü ildə Daxili İşlər Nazirliyində məişət zorakılığı ilə bağlı 9389 müraciət qeydə alınıb, məişət zorakılığı törədən 88 qadın, 1298 kişi məsuliyyətə cəlb olunub. Musavat.com xəbər verir ki, bu, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2023-cü il üzrə məlumatında əksini tapıb.**

Qeyd olunub ki, 2022-ci ildə bu rəqəm 9864 olub. Rəqəmlərə əsasən, bu, məişət zorakılığı ilə bağlı müraciətlərin azaldığını göstərir.

Ailə münaqişəsi zəminində Daxili İşlər Nazirliyinə daxil olmuş məlumatlar üzrə görülən operativ cavab tədbirləri ilə 9389 hüquqazidd əməlin qarşısı alınıb.

Hesabata görə, məişət zorakılığı ilə bağlı 1482 cinayət törətmiş 88-i qadın, 1298-i kişi olmaqla 1386 şəxs məsuliyyətə cəlb olunub.

2023-cü ildə 1224 qadın, 289 kişi məişət zorakılığından zərər çəkib.

Sənəddə vurğulanıb ki, statistik rəqəmlərə əsasən, məişət zorakılığı ilə bağlı cinayət törətmiş şəxslərin əksəriyyəti kişilər, zərərçəkmiş şəxslərin isə çoxu qadınlar olub.



## Leysan yağışı yağacaq

**Mayın 21-də Azərbaycanda müşahidə ediləcək hava şəraiti açıqlanıb. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-15° isti, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80 %, gündüz 45-55 % olacaq.**

Azərbaycanın rayonlarında da bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntıda fasilə olacaq. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15° isti, gündüz 20-25° isti, dağlarda gecə 1° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacaq.

YENİ MÜSAVAT

Son səhifə

N 87 (8460) 21 may 2024

May

# Ömür uzunluğu artacaq - neçə il?



**Beynəlxalq alimlər qrupu əsrin ortalarına qədər gözlənilən ömür uzunluğunun artmağa davam edəcəyini müəyyən ediblər. 2050-ci ilə qədər qlobal ömür uzunluğunun nə qədər artacağı proqnozlaşdırılıb. Alimlərin hesablamalarına görə, 2022-2050-ci illər arasında dünyada orta ömür uzunluğu 73,6 ildən 78,1 yaşa qalxacaq.**

Qısa müddətdə orta ömür uzunluğunun təxminən 4,5 il artacağını bildirən alimlər bəzi detalları da açıqlayıblar. Belə ki, kişilərin 4,9 il, qadınların isə 4,2 il daha çox yaşayacağı ehtimal edilir. Qeyd edək ki, ömrün uzanmasının əsas səbəbləri olaraq isə bunlar göstərilib:

**1.** Ürək-damar xəstəliklərindən ölüm hallarının azalması;

**2.** Afrika, Latın Amerikası və Karib hövzəsi ölkələrində tənəffüs yolu ilə yoluxan infeksiyalar, əsasən də vərəmdən ölüm hallarının azalması;

**3.** Ana və neonatal ölüm hallarının azalması.

Proqnoza dair tədqiqat "The Lancet" elmi jurnalında dərc olunub.

## Evliliyin sirri... ayrı-ayrı yataqlarda yatmaqdır

**Şimali Uelsdən olan 40 yaşlı Luana Ribeira daha yaxşı yatmaq və evliliklərini xilas etmək istəyənlərə kömək etmək üçün gözlənilməz üsul tapıb. Qadının sözlərinə görə, cütlüklər ayrı yatmalıdır.**

Ribeyra altı ildir evlidir, lakin evliliyinin ilk aylarında əri ilə müxtəlif otaqlarda yatmağa qərar verib. Bu tənzimləmə sayəsində qadın hər səhər əri ilə görüşə hazırlaşmaq imkanı qazanır. O qeyd edir ki, uşaqlar yuxunu ayırmaq üçün maneəyə çevrilməyiblər: bir qayda olaraq, əri ilə oğlunu axşamlar bir yerə qoyur, ana isə gecə oyanırsa, həmişə kiçik qızına baxır.

Ribeira bütün cütlükləri ayrı otaqlarda yatmağa çağırıb. "Demək olar ki, həmişə yaxşı yatırıq. Bu, sadə görünür, amma öz təcrübəmdən və dostlarımdan bilirəm ki, birgə yatmaq həmişə belə olmur, o deyir. "Və yorğunluğa, əsəbiliyə səbəb olur və tərəfdaşla daha səbirli olmağı çətinləşdirir".

## Qəlyanaltı üçün ən universal və sağlam qida açıqlandı

**Qəlyanaltı üçün universal və sağlam qida qoz-fındıqdır. Bu barədə amerikalı diyetoloq Cessila Boll öz tövsiyələrində deyib. O bildirib ki, ən ideal qəlyanaltı - daşınması əlverişli və demək olar ki, istənilən mühitdə yeyilə bilənidir və qoz-fındıq bu məsələdə əvəzedilməzdir. Diyetoloqun fikrincə, bu məhsul rahatlıqdan əlavə, yaxşı dad və bir çox faydalı xüsusiyyətlərə malikdir.**

Qoz-fındıq insanı tox saxlayan yağ, lif və zülalla zəngindir. Bundan əlavə, onların tərkibində bədənin optimal işləməsi üçün zəruri olan maqnezium, E vitamini, sink və fol turşusu var. Müntəzəm olaraq qoz-fındıqla qəlyanaltı etmək ürək sağlamlığını yaxşılaşdırmağa və diabet riskini azaltmağa kömək edir. Aclıq çox güclüdürsə, Boll qoz-fındıqlara quru meyvə, alma, pendir və ya tünd şokolad əlavə etməyi təklif edir.

## Bu qida ən aqressiv formada xərçəng yaradır



**Avropalı mütəxəssislər adi yox, aqressiv forma xərçəng yaradan qidaları açıqlayıb. Elmi araşdırmanın nəticələri Britaniya Tibbi dərgisində çap olunub. Söhbət çox şirin, yağlı və güclü termiki işləmədən keçən qidalardan gedir. Ultraemal edilmiş ərzaqlar mədə, mədəaltı vəz, bağırsaq və qaraciyərin aqressiv xərçəngi ilə əlaqəlidir. Alimlərin siyahısında ilk 4-də fastfood, qazlı şirin içkilər, desertlər və uzun müddət satışda qalan şirniyyat, un məmulatları daxildir. Bu qidalardan uşaqları uzaq tutmaq lazımdır:**

- Qazlı, rəngli, şirin içkilər - piylənmə, diabet, gələcəkdə xərçəng mənbəyidir.

Bu sularda olan fosfor turşusu sümükləri yuyub əridir.

## Amerikada insanları çipləməyə başlayıblar

**ABŞ-da ilk beyin-kompüter interfeysinin kommersiya sisteminin klinik sınaqlarına başlanılıb. Bu barədə "Aroged" xəbər portalı məlumat yayıb. İlkin mərhələdə sistemin təhlükəsizliyinin təsdiqlənməsi, eləcə də düşüncə gücünün rəqəmsal qurğular ilə effektiv işləmək qabiliyyətinin yoxlanılması həyata keçirilir.**

İmplantasiya zamanı çiplərin elektrodları qan damarlarından beyinə keçir və implantasiya əməliyyatı təxminən iki saat çəkir. Daha sonra maşın beyin fəaliyyətini elektrik siqnallarına çevirməyə başlayır və üzərində eksperiment aparılan insana mətn mesajları, e-poçt, onlayn alış-veriş və ya digər işləri yerinə yetirməyə imkan verilir. Bu əməliyyatlarla "Synchron" şirkəti məşğul olur. Əgər klinik sınaqlar uğurlu olarsa, o zaman "Synchron" bu məhsulu kommersiya əsasında bütün əldə etmək istəyənlərə satmağa başlayacaq - çiplər əsasən iflic olan xəstələrə kömək etmək üçün nəzərdə tutulub.

Qeyd olunur ki, "Synchron" tanınmış rəqibi, beyinə implantasiya edilən çiplərin hazırlanması və istehsalı ilə məşğul olan İlon Maskın "Neuralink" şirkətini qabaqlayır.

## Bunları bilirsinizmi?

* Liftdə ayna qoyulmasının əsas səbəbi qapılar açılarkən kabinənin yerində olduğunu görməkdir.

* Fillərin rəngi əslində boz deyil, qızılı-torpaq rəngidir. Boz görünmələrinin səbəbi palçıqlı suların üzərlərində qurumasıdır.

* Qiymətli daşların çoxu bir neçə elementin birləşməsindən meydana gəlir, yalnız brilyant tamamilə karbondan əmələ gəlir.

* Albert Eynşteyn 9 yaşından sonra tam danışmağa başlayıb. Buna görə də ailəsi onun əqli cəhətdən qüsurlu olduğunu düşünüb.

* "Santa Klaus"un paltarı əslində yaşıl rəngdədir. Ancaq bir kola markası onu qırmızı-ağ olaraq dünyaya tanıdıb.

* Qütb ayıları isti və nəmli mühitdə qaldıqları zaman kürklərinin rəngi yaşıl rəngə çevrilir.

* Alma, soğan və kartofun dadı eynidir. Yalnızca qoxuları fərqlidir. Əslində hamısı şirindir.

* Göytürklər turşuyan qatığın turşuluğunu azaltmaq üçün üzərinə su töküblər. Beləliklə özləri də bilmədən ayranı kəşf ediblər.

* Dünyanın ən sürətli böyüyən bitkisi bambuk ağacıdır. Ağac gündə 90 santimetr uzanır.

* Dünyada ən çox satılan telefon "Nokia" markasının 2003-cü ildə satışa çıxardığı, 250 milyon ədəd satılan "Nokia 1100"dır.

* Alimlərin fikrincə, insan məktəbi bitirdikdən 22 il sonra sinif yoldaşlarının demək olar hamısının adını və simasını yaddan çıxarır.

* Roma ordusunda hər çadırda 10 əsgər qalırdı. Hər çadırın öz başçısı seçilir və "dekan" adlanırdı.

## Bu vərdiş diabet riskini azaldır



**Alimlər deyir ki, sadə yemək vərdişi diabet riskini azaltmağa kömək edir. Düzgün pəhriz şəkər səviyyənizi nəzarət altına almağa kömək edəcək. Son elmi araşdırmalar müəyyən bir pəhrizin diabet inkişaf riskini əhəmiyyətli dərəcədə azalda biləcəyini aşkar edib. Bu cür pəhriz həm də prediyabetli və artıq xəstəlik diaqnozu qoyulmuş insanlara kömək edəcək.**

Tulane Universiteti tərəfindən aparılan bir araşdırma pəhrizdə karbohidratların məhdudlaşdırılmasının diabet riskini azalda və ya nəzarətdə saxlamağa kömək edə biləcəyini təsbit edib. Bu, diabetin idarə edilməsi üçün aşağı karbohidratlı pəhrizlərin potensial faydalarını da qeyd edən əvvəlki tapıntıları təsdiqləyir.

Bu tədqiqatın unikal cəhəti odur ki, qan şəkərini azaltmaq üçün dərman istifadə etməyənlər üçün aşağı karbohidratlı pəhrizin faydaları aşkar edilib. Tədqiqatçılar 40-70 yaş arası şəkərli diabet və ya prediyabeti olan və dərman qəbul etməyən 150 iştirakçı ilə altı aylıq araşdırma aparıblar.

Altı aydan sonra aşağı karbohidratlı pəhrizdə iştirak edənlər hemoglobin A1c səviyyələrində azalma göstəriblər, bu da qan şəkərinə nəzarətin yaxşılaşdığını göstərir.

Aşağı karbohidratlı qrupdakı iştirakçılara ilk üç ayda gündə 40 qram limitlə başlayaraq, sonra 60 qrama qədər artırılaraq gün ərzində karbohidrat qəbulu ilə bağlı tövsiyələr verilib. Eyni zamanda, nəzarət qrupunun iştirakçıları pəhrizlə bağlı xüsusi təlimat almayıblar.

Bununla belə, bu, aşağı karbohidratlı pəhrizin diabet və ya prediabet xəstələrinə qan şəkərini idarə etməyə necə kömək edə biləcəyini başa düşmək üçün mühüm töhfədir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500